ISSN 1028-8546

Volume XX, Number 4
Section: Az
December, 2014

Azerbaijan Journal of Physics

Fizika



www.physics.gov.az

G.M. Abdullayev Institute of Physics
Azerbaijan National Academy of Sciences
Department of Physical, Mathematical and Technical Sciences

Published from 1995
Ministry of Press and Information
of Azerbaijan Republic,
Registration number 402, 16.04.1997

ISSN 1028-8546
vol. XX, Number 4, 2014
Series: Az

Azerbaijan Journal of Physics

FIZIKA

G.M.Abdullayev Institute of Physics
Azerbaijan National Academy of Sciences
Department of Physical, Mathematical and Technical Sciences

HONORARY EDITORS

Arif PASHAYEV

EDITORS-IN-CHIEF

Nazim MAMEDOV Chingiz QAJAR

SENIOR EDITOR

Talat MEHDIYEV

INTERNATIONAL REVIEW BOARD

Ivan Scherbakov, Russia
Kerim Allahverdiyev, Azerbaijan
Mehmet Öndr Yetiş, Turkey
Gennadii Jablonskii, Buelorussia
Rafael Imamov, Russia
Vladimir Man'ko, Russia
Eldar Salayev, Azerbaijan
Dieter Hochheimer, USA
Victor L'vov, Israel
Vyacheslav Tuzlukov, South Korea
Majid Ebrahim-Zadeh, Spain
Firudin Hashimzadeh, Azerbaijan
Anatoly Boreysho, Russia
Mikhail Khalin, Russia
Hasan Bidadi, Tebriz, East Azerbaijan, Iran
Natiq Atakishiyev, Mexico
Maksud Aliyev, Azerbaijan
Arif Hashimov, Azerbaijan
Vali Huseynov, Azerbaijan
Javad Abdinov, Azerbaijan
Bagadur Tagiyev, Azerbaijan
Tayar Djafarov, Azerbaijan
Talat Mehdiyev, Azerbaijan
Emil Guseynov, Azerbaijan
Ayaz Baramov, Azerbaijan
Tofiq Mammadov, Azerbaijan
Salima Mehdiyeva, Azerbaijan
Shakir Nagiyev, Azerbaijan
Rauf Guseynov, Azerbaijan
Almuk Abbasov, Azerbaijan
Yusif Asadov, Azerbaijan

TECHNICAL EDITORIAL BOARD

Senior secretary Elmira Akhundova, Nazli Guseynova, Sakina Aliyeva,
Nigar Akhundova, Elshana Aleskerova

PUBLISHING OFFICE

131 H.Javid ave, AZ-1143, Baku
ANAS, G.M.Abdullayev Institute of Physics

Tel.: (99412) 439-51-63, 439-32-23
Fax: (99412) 447-04-56
E-mail: jophphysics@gmail.com
Internet: www.physics.gov.az

It is authorized for printing:

Published at "**SƏRQ-QƏRB**"
17 Ashug Alessger str., Baku
Typographer : Aziz Gulaliyev

Sent for printing on: __.__. 201_
Printing approved on: __.__. 201_
Physical binding:_____
Number of copies:_____200
Order:_____

$TlGaTe_2$ KRİSTALININ BORN EFFEKTİV YÜK VƏ DİELEKTRİK TENZORLARININ TƏMƏL PRİNSİPLƏRDƏN HESABLANMASI

H.S. ORUCOV[1,2], V.N. CƏFƏROVA[1]

[1] AMEA-nın H.M. Abdullayev adına Fizika İnstitutu, H.Cavid 33, Bakı, AZ 1143, Azərbaycan

[2]Azərbaycan Texniki Universiteti, H.Cavid 25, Bakı, AZ 1073, Azərbaycan

e-mail: vina246@rambler.ru

İşdə Quantum Espresso proqramlar paketi istifadə olunmaqla Funksional Sıxlıq Həyəcanlaşma Nəzəriyyəsinin Lokal Sıxlıq Yaxınlaşması metodu ilə zəncirvari $TlGaTe_2$ birləşməsi üçün Born effektiv yük və dielektrik tenzorları hesablanmışdır.

UOT: 537.226.1: 537.8

Açar sözlər: $TlGaTe_2$, təməl prinsiplər, funksional sıxlıq nəzəriyyəsi, lokal sıxlıq yaxınlaşması, fonon spektri, Born effektiv yük, dielektrik tenzor

$TlGaTe_2$ birləşməsi digər TlSe tipli birləşmələr içərisində ən zəif öyrənilmişidir. Bu kristallar texnikada tətbiq olunmaq üçün əlverişli materiallar [1] olmaqla geniş texniki tətbiq imkanlarına malik birləşmələrdir. Tətbiq olunma nöqteyi nəzərindən $TlGaTe_2$, onun binar (TlSe, InTe, TlS və s.) və üçqat analoqlarının ($TlInSe_2$, $TlInTe_2$, $TlGaSe_2$ və s.) öyrənilməsinin mühüm səbəblərindən biri bu birləşmələrin termoelektrik [2, 3] və elektrik [4, 5] xassələrinə marağın böyük olmasıdır.

Ədəbiyyatda verilən məlumatlara görə zəncirvari $TlGaTe_2$ və onun üçqat analoqlarının elektrik, fotoelektrik, optik və s. xassələrində onların praktiki tətbiqinə geniş imkan açan digər maraqlı xüsusiyyətlər aşkar edilmişdir.

Qeyd etmək lazımdır ki, təqdim olunan işə qədər ədəbiyyatda $TlGaTe_2$ kristalının yalnız zona quruluşu hesablamalarına rast gəlinmişdir. Belə ki, kristalın zona quruluşu ilk dəfə empirik psevdopotensial metodu ilə [6]-də, psevdopotensialın qeyri-lokallığını nəzərə almaqla və elektron-ion qarşılıqlı təsirini model çərçivəsində götürməklə [7]-də hesablanmışdır. $TlGaTe_2$ birləşməsinin fonon zona quruluşu ilk dəfə nəzəri olaraq təqdim edilən işdə hesablanmışdır.

Məqalədə tetraqonal $TlGaTe_2$ birləşməsi üçün təməl prinsiplərdən qurulmuş fonon spektri [8, 9] əsasında Quantum Espresso (QE) [10] proqramlar paketi istifadə olunmaqla Born effektiv yük və dielektrik tenzorları hesablanmış, alınmış nəticələr əldə edilən eksperimentlə müqayisə olunmuşdur.

Məlumdur ki, tədqiq olunan $TlGaTe_2$ üçqat birləşməsi zəncirvari quruluşa malikdir [11, 12]. Birləşmədə Tl atomları təpələrində səkkiz ədəd Te atomu olan bir qədər deformasiya olunmuş və azacıq burulmuş kubların (Tomson kubları) mərkəzində yerləşir. Ga atomları təpələrində dörd ədəd Te atomlarından ibarət tetraedrlərin mərkəzində durur və onları əhatə edən Te atomları ilə birlikdə ${}^{Te}_{Te}\rangle Ga\langle^{Te}_{Te}\rangle Ga\langle^{Te}_{Te}$ tipli zəncirlər əmələ gətirir [13]. Quruluş tipi B37, otaq temperaturunda fəza simmetriya qrupu $D_{4h}^{18}(I4/mcm)$ olan həcməmərkəzləşmiş qəfəsdə tetraqonal sinqoniyada kristallaşır [13]. $TlGaTe_2$ birləşməsinin *a-b* müstəvisində kristal quruluş görüntüsü [13] və Brillüen Zonası (BZ) [14] uyğun olaraq şəkil 1.a və şəkil 1.b-də verilmişdir.



Şəkil 1. $TlGaTe_2$ -nin kristal quruluşu [13] və həcməmərkəzləşmiş tetraqonal qəfəs (*c/a<1*)) üçün Brillüen Zonası [14].

$TlGaTe_2$ kvazi-birölçülü birləşməsinin fonon spektrini qurmaq üçün əvvəlcə kristalı təşkil edən atomların tarazlıq vəziyyəti təməl prinsiplərdən hesablanmışdır. Atomların tarazlıq konfiqurasiyasının müəyyən edilməsi üçün Kohn-Sham tənlikləri [15] həll olunmuşdur. Bu tənliklərin həlli üçün qoşma qradient minimallaşdırma metodu [16] tətbiq edilmişdir. Nəticədə elektronların dalğa funksiyaları və enerjisi hesablanmışdır. Hesablamalar QE proqramlar paketi [10] istifadə olunmaqla Funksional Sıxlıq Həyəcanlaşma Nəzəriyyəsinin [17] Lokal Sıxlıq Yaxınlaşması [14] ilə Xətti Cavab Funksiyası metodu [18] çərçivəsində 12 ədəd paralel qoşulmuş prosessor ilə yeri-

nə yetirilmişdir [19]. Elektron-ion qarşılıqlı təsiri ultrasoft Tl üçün Vanderbilt [20], Ga və Te üçün normanı qoruyan Bachelet-Hamann-Schlüter [21] qeyri-lokal ion psevdopotensialları ilə nəzərə alınmışdır. Dalğa funksiyalarının sıraya ayrılışında maksimal kinetik enerjisi 80 Ridberqi aşmayan müstəvi dalğalardan istifadə olunmuşdur. BZ üzrə inteqrallama Monkhorst-Pack sxemi [22] üzrə 4x4x4 k dalğa vektorları qridi istifadə olunmaqla xüsusi nöqtələrə görə cəmləmə ilə əvəz olunmuşdur. Korrelyasiya effektləri Ceperley-Alder-Perdew-Zunger [23] sxemi üzrə nəzərə alınmışdır.

$TlGaTe_2$ kristalının termodinamik tarazlıq halında qəfəs (a, c) və halkogen (x) parametrlərinin hesablamadan alınmış qiymətləri və eksperimentdən məlum olan nəticələr cədvəl 1-də verilmişdir.

Cədvəl 1.

$TlGaTe_2$ kristalının təməl prinsiplərdən hesablanmış qəfəs və halkogen parametrləri.

Parametr	Hesablama	Eksp. [12]
a, Å	8.553	8.429
c, Å	6.876	6.865
x	0.170	0.170

Cədvəl 1-dən göründüyü kimi nəzəri hesablanmış qəfəs parametrlərinin qiymətləri eksperimental nəticələrlə [12] yaxşı uyğunluq təşkil edir. Halkogen parametrinin qiyməti isə eksperimental qiymətlə [12] üst-üstə düşür.

$TlGaTe_2$-nin təməl prinsiplərdən hesablanmış fonon spektri əsasında, fonon və elektrik sahəsi cavab funksiyaları istifadə edilməklə, kristalı təşkil edən atomlar üçün Born effektiv yük və dielektrik sabiti tenzorları hesablanmış, birləşmənin dielektrik xassələri tədqiq edilmişdir.

Bilirik ki, $TlGaTe_2$ birləşməsinin kristal quruluşu ion-kovalent rabitə hesabına yaranır. [24] işində bu tip birləşmələr üçün aşağıdakı kimyəvi rabitə modeli təklif olunmuşdur. Belə ki, Tl atomları öz xarici p-elektronunu Ga atomlarına verir və bu zaman Tl^{1+} ionuna çevrilir. Ga^{1-} ionu malik olduğu dörd elektronla sp^3-konfiqurasiya əldə edir və halkogen atomları (Te) ilə tetraedrik rabitə yaratmaq imkanı qazanır. Tetraqonal ox boyunca düzülmüş tetraedr zəncirləri bu qayda ilə əmələ gəlir. Biryüklü Tl^{1+} ionları səkkiz ədəd Te atomunun əhatəsində olmaqla kovalent rabitədə iştirak etmir. Deməli, zəncirlərdə üçvalentli qallium və ikivalentli tellur arasında (Ga^{3+}-Te^{2-}) kovalent, birvalentli tallium və onu oktaedrik əhatə edən ikivalentli tellur ionları arasında isə (Tl^{+}-Te^{2-}) ion rabitəsi mövcuddur.

Tədqiq edilən $TlGaTe_2$ birləşməsi üçün təməl prinsiplərdən Born effektiv yüklərini $\left(Z^*_{i,\alpha,\beta}\right)$ hesablamaq üçün aşağıdakı ifadədən istifadə edilmişdir [25]:

$$Z^*_{i,\alpha,\beta} = Z_i + \frac{\Omega_0}{|e|}\frac{\left(\Delta P_{el}\right)_\alpha}{u_{\beta i}},$$

burada Ω_0 - kristallik bəsit özəyin həcmi, Z_i i-ci atomun ion yükü, $u_{\beta i}$ isə elementar özək R-də i-ci atomun β istiqamətində tarazlıq vəziyyətindən yerdəyişməsi olub

$$u_{\alpha i}(R) = u_{\alpha iq} e^{iq\cdot R}$$

ifadəsi vasitəsi ilə təyin olunur.

Born effektiv yükləri ΔP_{total} tam (ion+elektron) makroskopik polyarlaşma ilə isə aşağıdakı kimi təyin oluna bilər [25]:

$$Z^*_{i,\alpha,\beta} = \frac{\Omega}{|e|}\frac{\left(\Delta P_{tot}\right)_\alpha}{u_{\beta i}}.$$

Qeyd edək ki, polyarlaşmaya ionlar hesabına pay trivialdır, elektron hesabına pay isə Brillüen zona mərkəzindəki fonona xətti cavabdan təyin olunur.

Kristalın polyarlaşmasının müasir nəzəriyyəsini Resta [26] təklif etmişdir. O, göstərmişdir ki, polyarlaşmada elektronlar hesabına meydana çıxan pay kristal bərk cismin Kohn-Sham hamiltonianında baş verən sonlu adiabatik dəyişmə ilə əlaqədardır. King-Smith və Vanderbilt nəzəriyyəni inkişaf etdirərək göstərmişlər ki, polyarlaşmanın dəyişməsi valent dalğa funksiyalarının Berri fazası ilə bağlıdır [27].

Dielektrik sabiti tenzoru isə aşağıdakı ifadədən istifadə olunmaqla [28] hesablanmışdır:

$$\in_{\alpha\beta} = \frac{\partial D_{mac,\alpha}}{\partial E_{mac,\beta}} = \delta_{\alpha\beta} + 4\pi\frac{\delta P_{mac,\alpha}}{\delta E_{mac,\beta}},$$

burada D_{mac} makroskopik elektrik sahəsinin induksiya vektoru, $D_{mac} = E_{mac} + 4\pi\pi_{mac}$ ifadəsindən təyin olunur, P_{mac} deformasiya hesabına əmələ gələn polyarlaşma: $P_{mac} = P_{el.} + P_{ion}$, E_{mac} makroskopik elektrik sahəsinin intensivliyidir. Makroskopik induksiyalanmış polyarlaşmanı aşağıdakı ifadə ilə hesablamaq olar [29]:

$$\delta P_\alpha = -\frac{e}{N_c\Omega}\int r_\alpha \delta n(r)dr = \frac{e}{N_c\Omega}\sum_\upsilon \left\langle \overline{\Psi}^\alpha_\upsilon \middle| \Delta\Psi_\upsilon \right\rangle,$$

burada N_c - Ω_c həcmli özəyin nömrəsi, $N_c\Omega$ kristalın həcmidir. Beləliklə, dielektrik tenzoru sahənin makroskopik yerdəyişməsi ilə makroskopik elektrik sahəsi arasında bir mütənasiblik əmsalıdır. Elektrik sahəsinin induksiya vektoru ilə makroskopik elektrik sahəsinin komponenti arasında aşağıdakı məlum münasibət var:

$$D_{mac,\alpha} = \sum_\beta \in_{\alpha\beta} E_{mac,\beta}.$$

Ümumiyyətlə, D_{mac} yerdəyişməsi, və ya P_{mac} makroskopik polyarlaşması ion rəqslərindən olan pay ilə əlaqələndirilir. İşdə dielektrik sabiti tenzoruna elektron pol-

yarlaşmasından olan pay araşdırılmışdır. Bu pay, adətən, $\in^{\infty}_{\alpha\beta}$ kimi işarə edilir. Dielektrik sabiti tenzoruna olan elektron payı aşağıdakı şəkildə verilir:

$$\in^{\infty}_{\alpha\beta} = \delta_{\alpha\beta} - \frac{4\pi}{\Omega_0} 2E_{el.}^{\varepsilon_\alpha^* \varepsilon_\beta},$$

hesab edilir ki, ionlar tarazlıq vəziyyətindən hərəkət etmir (bərkidilmişdir). Burada $E_{el.}^{\varepsilon_\alpha^* \varepsilon_\beta}$ ikinci tərtib törəmə olub, daha sadə halda qeyi-stasionar ifadəsi aşağıdakı kimidir:

$$E_{el.}^{\varepsilon_\alpha^* \varepsilon_\beta}\left\{u^{(0)}; u^{\varepsilon_\alpha}\right\} = \frac{\Omega_0}{(2\pi)^3} \int_{BZ} \sum_{m}^{occ} s\left\langle u_{mk}^{\varepsilon_\alpha} \middle| i u_{mk}^{k\beta} \right\rangle dk.$$

Bu ifadə u^{ε_α} - nın, dalğa funksiyalarının birinci tərtib törəməsinin α istiqamətində elektrik sahəsinə nisbətinin məlum olması ilə $\in_{\alpha\beta}$ dielektrik tenzorunu təyin etməyə imkan verir.

TlGaTe$_2$ üçün təməl prinsiplərdən hesablamalardan alınmış Born effektiv yüklərinin qiymətləri və özək üzrə yüklərin cəmi cədvəl 2-də gətirilmişdir.

Cədvəl 2.

TlGaTe$_2$ üçün hesablanmış Born effektiv yük tenzoru.

Effektiv yüklər			Özək üzrə yüklərin cəmi
Z^* (Tl)	Z^* (Ga)	Z^* (Te)	
2.83 0 0 0 2.83 0 0 0 2.23	2.23 0 0 0 2.23 0 0 0 4.18	-2.55 -0.28 0 -0.28 -2.55 0 0 0 -3.21	-0.08 -0.08 -0.02

Göründüyü kimi Tl və Ga atomları üçün Born effektiv yük tenzoru tetraqonal dekart koordinat sistemində diaqonal şəkilə malikdir. Te atomları üçün yalnız Z_{xy}(Te)=Z_{yx}(Te)=-0.28e qeyri-diaqonal element sıfırdan fərqli olub, diaqonal elementlərin təxminən 10%-ni təşkil edir. Müəyyən edilmişdir ki, Tl və Ga atomlarının bir-birindən fərqi bu atomlar üçün zəncirlərə paralel istiqamətdə hesablanmış Born effektiv yükləri arasında təxminən iki dəfə fərqdə özünü göstərir: Z^*_{zz}(Tl)=2.23e və Z^*_{zz}(Ga)=4.18e. Zəncirlərə perpendikulyar istiqamətdə həmin atomların Born effektiv yükləri arasında əhəmiyyətli fərq yoxdur: Z^*_{xx}(Tl)=Z^*_{yy}(Tl)=2.8e, Z^*_{xx}(Ga)=Z^*_{yy}(Ga)=2.23e. Akustik cəmləmə qaydasının daha dəqiq ödənilməsi hesablamanın dəqiqliyinin kifayət qədər yüksək olmasını şərtləndirir:

$$2Z^*_{xx}(\mathrm{Tl})+2Z^*_{xx}(\mathrm{Ga})+4Z^*_{xx}(\mathrm{Te})=-0.08;$$
$$2Z^*_{yy}(\mathrm{Tl})+2Z^*_{yy}(\mathrm{Ga})+4Z^*_{yy}(\mathrm{Te})=-0.08;$$
$$2Z^*_{zz}(\mathrm{Tl})+2Z^*_{zz}(\mathrm{Ga})+4Z^*_{zz}(\mathrm{Te})=-0.02.$$

TlGaTe$_2$ üçün $E \parallel c$ və $E \perp c$ polyarlaşmalarında təməl prinsiplərdən hesablamalardan alınmış dielektrik sabitlərinin qiymətləri ilə əldə edilmiş nəzəri [7] və eksperimental [30, 31] qiymətlər cədvəl 3.-də gətirilmişdir. [7] işində seçmə qaydaları və TlGaTe$_2$-in optik spektrləri əsasında nəzəri təyin edilmiş dielektrik sabitinin qiymətləri $E \parallel c$ və $E \perp c$ polyarlaşmalarında uyğun olaraq 12.59 və 13.4, [31]-də spektro-ellipsometrik optik ölçmələrdən 15 və 14.5 alınmışdır.

Cədvəl 3.

TlGaTe$_2$ üçün hesablanmış dielektrik tenzoru.

Dielektrik sabiti	Fonon hesab.	Optik sabitlərin hesab.[7]	Eksp. [30]	Optik-ellipsometrik eksp.[31]
$\in_{\infty\perp}$	14.5	12.59	13.1	14.5
$\in_{\infty\parallel}$	15.7	13.14	14.8	15

Müəyyən edilmişdir ki, tədqiq olunan TlGaTe$_2$ kristalının dielektrik sabiti tenzoru diaqonal şəkilə malik olub, ϵ_{xx}=ϵ_{yy}=15.7 (eksp.: ϵ_{xx}=ϵ_{yy}=14.8) və ϵ_{zz}=14.5 (eksp.: ϵ_{zz}=13.1) [30], kristalın dielektrik xassələrində ciddi anizotropluğun olmadığını göstərir.

[1] *И.В. Алексеев.* ФТП. 32, 1998, 588.
[2] *G.D. Guseinov, E. Mooser, E.M. Kerimova et al*. Phys. Stat. Sol. 34, 1969, 33.
[3] *N. Mamedov, K. Wakita, A. Ashida, T. Matsui and K. Mori*. Thin Solid Films. 499, 2006, 275.
[4] *M.P. Hanias and A.N. Anagnostopoulos.* Phys. Rev. B 47, 1993, 4261.
[5] *M. Hanias, A.N. Anagnostopoulos, K. Kambas and Spyridelis*. J. Phys. Rev. B 43, 1991, 4135.
[6] *Ф.М. Гашимзаде, Ф.М. Оруджев, М.А. Низаметдинова*. В сборнике: "Физические свойства сложных полупроводников", Баку, 1983, 80.
[7] *Э.М. Годжаев, Г.С. Оруджев, Д.М. Кафарова.* ФТТ, 46, 2004, 811.
[8] *V. Jafarova, G. Orudzhev, R. Paucar, O. Alekperov, Y. Shim et al.* 19th International Conference on Ternary and Multinary Compounds (Niigata, Japan), September 1-5, 2014, 124.
[9] *H.S. Orucov, V.N. Cəfərova*. Xəbərlər, XXXIV, №5, 2014, 40.
[10] http://www.quantum-espresso.org/
[11] *H. Hahn, B. Wellman*. Naturwissenschaften, 54, 1967, 42.
[12] *D. Muller, G. Eulenberger, H.Z. Hahn*. Anorg. Allg. Chem. 398,1973, 207.
[13] *J. Ketelaar, W. t'Hart, R. Moorel et al.* Z. Kristallogr., 101A, 1939, 396.
[14] *Ф.М. Гашимзаде*. ФТТ, 2, 1960, 3040.
[15] *W. Kohn and L. Sham.* Phys. Rev. 140, 1965, A1133.
[16] *M. Payne, M. Teter, D. Allan et al.* Rev. Mod. Phys. 64, 1992, 1045.
[17] *P. Hohenberg, W. Kohn*. Phys. Rev. 136, 1964, B864.
[18] *S. Baroni, S. de Gironcoli, A. Dal Corso and P.Giannozzi*. Rev. Mod. Phys. 73,2001, 515.
[19] http://www.azgrid.org/
[20] *D. Vanderbilt*. Phys. Rev. B 41, 1990, 7892.
[21] *G. Bachelet, D. Hamann and M. Schluter*. Phys. Rev. B 26, 1982, 4199.
[22] *H. Monkhorst and J. Pack.* Phys. Rev. B. 13, 1976, 5188.
[23] *J. Perdew and A. Zunger*. Phys. Rev. B 23, 1981, 5048.
[24] *E. Mooser, W.Pearson.* J. Electronics 1, 1956, 629.
[25] *P.Giannozzi, S.de Gironcoli, P.Pavone and S. Baroni*. Phys. Rev. B 43, 1991, 7231.
[26] *R. Resta*. Ferroelectrics, 136, 1992, 51.
[27] *R.D. King-Smith and D. Vanderbilt*. Phys. Rev. B 47, 1993, 1651.
[28] *X. Gonze and C. Lee*. Phys. Rev. B 55, 1997, 10355.
[29] *R. Shaltaf, E. Durgun, J.Y. Raty, Ph. Ghosez and X. Gonze* . Phys. Rev. B 78, 2008, 205203-7.
[30] *Gasanly, N. M. Goncharov et al.* Phys. Status Solidi B 97, 1980, 367.
[31] *Y. Shim, H. Aoh, J. Sakamoto, K. Wakita, N. Mamedov*. Thin Solid Films 519, 2011, 2852.

G.S. Orudzhev, V.N. Jafarova

AB INITIO CALCULATİONS OF BORN EFFECTIVE CHARGE AND DIELECTRIC TENSORS OF $TlGaTe_2$ CRYSTAL

The paper presents the calculation of Born effective charge and dielectric tensors for chain crystal $TlGaTe_2$ in Local Density Approximation of Density Functional Perturbation Theory using Quantum Espresso program package.

Г.С. Оруджев, В.Н. Джафарова

РАСЧЕТЫ ТЕНЗОРОВ ЭФФЕКТИВНОГО ЗАРЯДА БОРНА И ДИЭЛЕКТРИЧЕСКОЙ ПОСТОЯННОЙ КРИСТАЛЛА $TlGaTe_2$ ИЗ ПЕРВЫХ ПРИНЦИПОВ

В работе приведен расчет тензоров эффективного заряда Борна и диэлектрической постоянной для цепочечного кристалла $TlGaTe_2$, выполненный при помощи пакета программ Квантовая Эспрессо на основе Теории Возмущения Функционала Плотности в приближении Локальной Плотности.

Qəbul olunma tarixi: 15.09.2014

KERAMİK KƏRPİC İSTEHSALI ÜÇÜN ABŞERON YARIMADASININ DİGAH KƏNDİ YAXINLIĞINDA YERLƏŞƏN MİNERAL XAMMALIN KOMPLEKS TƏDQİQİ

R.F. VƏLİYEV, Ə.C. XƏLİLOV
"YanarDağ" LTD MMC

S.S. ƏHƏDOVA, İ.İ. MUSTAFAYEVA, C.C. XƏLİLOV, İ.Y. ƏLİYEV
Azərbaycan Milli Elmlər Akademiyasının H.M. Abdullayev adına Fizika İnstitutu, H.Cavid 33, Bakı, AZ 1143, Azərbaycan

İstənilən tikinti materialının istehsalı üçün uyğun xammalın istehsal sahəsinə yaxın olması iqtisadi cəhətdən ən vacib şərtlərdən biridir. Bu baxımdan "Yanar Dağ" LTD MMC yaxınlığında yerləşən mineral xammalın (Digah kəndi) kompleksi tədqiqi aparılmışdır. Rentgen spektral analiz üsulu ilə müəyyən olunmuşdur ki, süxur əsasən silikat minerallarından ibarətdir. Rentgen faza analizi ilə süxurun əsasən kvarsdan, gillərdən, çöl şpatından ibarət olunduğu müəyyən olunmuşdur. DTA və TG analizi üsulları ilə süxurlarda üzvi maddələrin olması və 1000°C temperatur intervalında faza keçidləri müəyyən olunmuşdur.

OUT: 544.6.57
Açar sözlər: RSA, RDA, Tg, DTA, Digah gölü, suxurlar, keramik kərpic.

1. GİRİŞ.

Məlumdur ki, keramik kərpic istehsalı uçün əsas xammal gildir. Keramiki kərpiclər tətbiq sahəsinə görə müxtəlifdir. Deməli, onların istehsalı üçün istifadə olunan gillər də müxtəlifdir [1]. Təbiətdə gillər, xüsusilə çökmə yolu ilə əmələ gələn gillər, monomineral tərkibli olmur və onlar da müxtəlif mineralların qarışığıdır. Bu qarışıqlara əsasən kvars, karbonatlar, duzlar, gips, sulfatlar, pirit, çöl şpatları daxildir. Divar hörmək uçün istifadə olunan kərpiclər əsas etibari ilə illit və hidromuskavitdən ibarətdir [2]. Əmələgəlmə şəraitlərindən asılı olaraq gillərdə üzvi maddələrə də rast gəlinir [3]. Gillərin tətbiq sahələri əsasən onların kimyəvi və mineroloji tərkibindən və narınlığından asılıdır [3]. Texnoloji xassələrinə görə gillər: plastikliklərinə, yapışdırıcılığına, quruma zamanına, yanma zamanına, həcmin kiçilməsinə, odadavamlığı və bişmə zamanı ilə fərqlənirlər [4]. İstənilən mineral xammaldan hər hansı materialı istehsal etmək üçün əsas şərtlərdən biri keyfiyyətinin düzgün qiymətləndirilməsidir. Burada əsas şərt gil yatağından orta nümunənin götürülməsi və onun yararlı olması üçün kompleks tədqiqatların aparılmasıdır.

2.TƏCRÜBİ HİSSƏ.

2.1. Kimyəvi tərkib.

Yatağa ilkin baxış zamanı (şəkil 1) onun filiş tipli petroqrafik və mineroloji cəhətdən müxtəlif kiçik qalınlıqlı laylardan ibarət olması müşahidə olundu. Tədqiqat üçün laylara perpendikulyar istiqamətdə ümumi orta nümunə götürülmüşdür. Nümunənin kimyəvi tərkibi atom adsorbsiya metodu ilə analiz olunmuşdur (Almaniya , ΣIGMA cihazı).

Şəkil 1. Digah çökəkliyində nümunə götürülən yerin görüntüsü.



Şəkil 2. Tünd göy rəngli süxurun rentgenoqramı.



Şəkil 3. Sarı rengli süxurun rentgenoqramı.

Cədvəl 1.

Tünd göy və sarı rəngli nümunələrin faizlə kimyəvi element tərkibi.

Tünd boz rəngli			Sarı rəngli	
S/N	Kimyəvi element	Faizlə miqdarı	Kimyəvi element	Faizlə miqdarı
1	O	51,9	O	54
2	Si	25,4	Si	19,4
3	Al	5,1	Al	5,8
4	Ca	4,5	Ca	6,6
5	Fe	4,3	Fe	4,2
6	S	0,5	S	0,8
7	K	2,0	K	1,9
8	Mg	2,9	Mg	3,9
9	Na	2,2	Na	2,3
10	Cl	0,9	Cl	0,9
11	-	-	Ti	0,3
12	Σ	99.75	Σ	100.1

Cədvəldən göründüyü kimi, analizdən əvvəl qızdırmada itgi təyin olunmamışdır. Lakin süxurun tərkibində suyun və üzvi maddənin (Bitium) olması kimyəvi analizin həm kəmiyyətcə, həm də keyfiyyətcə nəticəsinə təsir göstərir (itgi termik analiz üsulu ilə təyin olunub). Müəyyən texnoloji sınaqlar aparmaq üçün kimyəvi tərkibi dəqiq təyin etmək vacibdir.

2.2. Rentgen faza analiz (RFA).

RFA Almaniya istehsalı olan (XRF) cihazında aparılmışdır. Nümunələrin difraktoqramları şəkil 2 və 3-də verilir. Mineroloji tərkibinə görə süxur, əsas etibari ilə kvarsdan, illitdən, kaolinitdən, çöl şpatından və az miqdarda kalsitdən ibarətdir. Çox ehtimal ki, nisbətən az miqdarda başqa mineral qarışıqları da vardır. Dəqiq analiz üçün orta nümunə və ya yatağın bir neçə yerindən ayrı-ayrı nümunələr götürülüb, nümunəni monomineral fraksiyalara ayırıb, monomineralların kimyəvi tərkibini və onun hansı minerallara aid olmasını müəyyən etmək lazımdır.

Alınmış termoqramlardan göründüyü kimi ən cox itgi 110°C qədər qızdırdıqda baş verir ki, bu da təxminən ~25%-ə yaxındır. İkinci itgi 400°C-dən başlayaraq 900°C-yə qədər davam edir ki, bu zaman itgi ~16% ətrafındadır. Birinci endoeffektdən əmələ gələn itgilər su və üzvi maddələrin hesabına baş verir. Üzvi maddə və suyun qarşılıqlı təsirindən yeni birləşmə əmələ gəlir. Bu fikri termoqramda 120°C-də yaranan endoeffekt də təsdiq edir. 120~400°C-yə qədər itgi yoxdur. Eyni zamanda, həmin temperatur intervalında DTA görə, zəif də olsa, endoeffekt baş verir. 500-510°C-də kiçik endoeffekt, 580°C-də geniş ekzoeffekt əmələ gəlir. 780°C-də ekzoeffekt və 820°C-də endoeffekt, 870°C-də ekzoeffekt baş verir. Şəkil 5-də verilmiş termoqramda ~50-170°C intervalında güclü ekzoeffektin baş verməsi, çox ehtimal ki, üzvi maddənin yanması ilə əlaqədardır.

2.3. Termoqravimetrik analiz.

Termik analiz Amerika istehsalı olan Perkin Elmer STA 6000 çihazında aparılmışdır. Termoqram şəkil 4 və 5-də verilmişdir.



Şəkil 4. Tünd göy rəngli süxurun termoqramı.



Şəkil 5. Açıq boz rengli süxurun termoqramı.

Aparılan araşdırmalardan göründüyü kimi, gil yatağı rənginə və geoloji quruluşuna görə iki müxtəlif rəngli (üst hissə tünd göy, alt hissə açıq qırmızımtıl boz) laylı süxurdur və hər iki süxur silikat birləşməsidir. Tünd bozda termiki analizin nəticəsinə görə üzvi maddələrin olması daha coxdur. Bu nümunədə kvarsın miqdarı nisbətən coxdur. Termiki analizin nəticələrinə görə nümunələr bir-birindən prinsipial fərqlənirlər. Belə ki, tund bozda 463°C-də baş verən endoeffekt, açıq sarı rəngli süxurda yoxdur. Hər iki nümunədə 582°C və 758°C temperaturda ekzoeffektlər müşahidə olunur. Bu effektlərin nümunələrdə bişmənin baş verməsi ilə əlaqadar olub-olmamasını müəyyən etmək texnoloji cəhətdən cox vacibdir.

3. NƏTİCƏLƏRİN MÜZAKİƏSİ.

Şəkil 1-də göründüyü kimi yatagın rənginə (üst hissə tünd göy, alt hissə açıq boz sarı) və geoloji quruluşuna görə iki müxtəlif rəngli və laylı süxurlardır. Hər iki süxur silikat birləşməsidir. Tünd bozda termiki analizin nəticəsinə görə üzvi maddələr daha çoxdur. Bu nümunədə kvarsın miqdarı nisbətən çoxdur. Termiki effektlərin nəticələrinə görə nümunələr bir-birindən prinsipial fərqlənirlər. Belə ki, tünd bozda 463°C-də baş verən endoeffekt, açıq sarı rəngli süxurda yoxdur. Hər iki nümunədə 582°C və 758°C temperaturda ekzoeffektlər müşahidə olunur. Bu effektlərin nümunələrdə bişmənin baş verməsi ilə əlaqədar olub-olmamasını müəyyən etmək texnoloji cəhətdən vacibdir.

4. NƏTİCƏ.

Nümunələrin müxtəlif rəngli olması, çox ehtimal ki, süxurda üzvi maddələrin rəngi ilə əlaqədardır. Süxur, əsas etibari ilə, silikat birləşmələrindən ibarətdir və karbonat mineralları ilə zəngindir. Mineroloji tərkibinə görə hər iki süxur, əsasən, kvarsdan, üzvi birləşmələrdən, gil mineral-larından və karbonatlardan ibarətdir. Süxurun kimyəvi, mineroloji tərkibini və bişmə temperaturunu təyin etmək, onun keramik üzlük kərpic istehsalı üçün yararlı olub-olmamasını müəyyən etmək üçün tədqiqatları davam etdirmək lazımdır.

[1] *А.И. Августиник.* Керамика, Учеб для вузов. Стройиздат, 1975. 592 с.
[2] *А.З.Золотарский. Е.Ш.Шейнман.* Производство керамического кирпича, 1989 г. 264 с.
[3] *Л.Л. Кошляк, В.В. Калиновский*. Производство изделий строительной керамики. Высшая школа ,1990, 207с.
[4] *С.Ж.Сайбулатов*. Производство керамического кирпича,1989.

R.F. Valiyev, A.J. Khalilov, S.S. Ahadova, I.I. Mustafayeva, J.J. Khalilov, I.Y. Aliyev

COMPREHENSIV ANALYSIS OF RAW MATERIALS FOR CERAMIC BRICK, LOCATED IN THE VICINITY OF THE VILLAGE OF ABSHERON PENINSULA DIGAH

Placing plants in the field of building materials with natural raw materials from an economic perspective is appropriate. In this sense, the construction of a brick factory "Yanardag» LTD in the vicinity of the village Digah, where the main raw material, can ensure the long-term normal operation of the plant, can be considered positive engineering solution.

In this paper a comprehensive analysis of said material is carried out. The X-ray spectroscopic analysis (XRD) showed that the material consists mainly of silicate mineral. X-ray phase analysis (XRD) revealed that the main components of the material are

quartz, clay and feldspar. The presence of organic substances in the material and a phase transition at a temperature of 1000 °C are found by differentially thermal analysis (DTA) and termografometrical one(TGA)

Р.Ф. Велиев, А.Д. Халилов, С.С. Ахадова,
И.И. Мустафаева, Д.Д. Халилов, И.Я. Алиев

КОМПЛЕКСНОЕ ИССЛЕДОВАНИЕ МИНЕРАЛЬНОГО СЫРЬЯ ДЛЯ ПРОИЗВОДСТВА КЕРАМИЧЕСКОГО КИРПИЧА, НАХОДЯЩЕГОСЯ В БЛИЗИ СЕЛА ДИГЯХ АБШЕРОНСКОГО ПОЛУОСТРОВА

Размещение заводов строительных материалов в местах с естественным сырьём с экономической точки зрения является целесообразным. В этом смысле строительство кирпичного завода «Янардаг» *LTD* в близи села Дигях, где расположено основное сырье, способное обеспечить нормальную длительную работу завода, можно считать положительным инженерным решением.

В настоящей работе проведен комплексный анализ упомянутого материала. Рентгено-спектральный анализ (РСА) показал, что этот материал состоит в основном из силикатных минералов. Рентгено-фазным анализом (РФА) установлено, что основными составляющими материала являются кварц, глина и полевой шпат. Путем дифференциально-термического (ДТА) и термографометрического анализов (ТГА) установлено наличие в материале органических веществ, и обнаружены фазовые переходы при температуре 1000°С.

Qəbul olunma tarixi: 15.09.2014

$Zn_{1-x}Cd_xO$ NAZİK TƏBƏQƏLƏRİNİN OPTİK XASSƏLƏRİNƏ VƏ SƏTH MORFOLOGİYASINA KATOD ÇÖKDÜRMƏ POTENSİALININ TƏSİRİ

H.M. MƏMMƏDOV, V.C. MƏMMƏDOVA
Bakı Dövlət Universiteti, Z. Xəlilov küç., 23, AZ1148
E-mail:mhhuseyng@gmail.com

Işdə müxtəlif tərkibli $Zn_{1-x}Cd_xO$ ($0.1 \le x \le 0.4$) şəffaf keçirici nazik təbəqələri sulu məhluldan elektrokimyəvi çökdürmə metodu ilə *şüşə*/SnO_2 altlıqları üzərində alınmışdır. Nazik təbəqələrin optik parametrlərinin optimal qiyməti üçün katod çökdürmə potensialının qiyməti müəyyən edilmişdir (U=-1.2V). Optik tədqiqatlar əsasında nazik təbəqələrin qadağan olunmuş zolağının qiyməti hesablanmışdır.

PACS: 78.40. Fy 82.45.-h. 78.20.-e78. 66.-w
Açar sözlər: Nazik təbəqə, elektrokimyəvi çökdürmə, yarımşəffaf nazik təbəqə, optik buraxma əmsalı, günəş elementləri.

GİRİŞ.

Otaq temperaturunda E_g=3.36 eV qadağan olunmuş zolağa malik ZnO şəffaf yarımkeçirici nazik təbəqələri hazırda ultrabənövşəyi (UB), mavi, yaşıl və ağ işıq diodlarında, həmçinin günəş energetikasında geniş tətbiqinə görə öz analoqlarından (GaN) heç də geri qalmır [1-3]. Belə ki, Ga təbiətdə nadir tapılan element olduğu halda, Zn geniş yayılmışdır. ZnO nazik təbəqələri kimyəvi cəhətdən dayanıqlı olması ilə bərabər, istehsal texnologiyası ucuzdur və zəhərli deyil. ZnO-in üstün cəhətlərindən biri isə onlarda eksiton rabitə enerjisinin (60 meV) GaN-ə (25meV) nisbətən boyük olmasıdır [4]. Eksiton rabitə enerjisinin bu cür böyük qiymətə malik olması ZnO nazik təbəqələrinin emissiya qabiliyyətini artırır ki, bu da onların lazer texnologiyasında tətbiq imkanlarını artırır.

Alınma texnologiyalarının təkmilləşdirilməsinə baxmayaraq, ZnO nazik təbəqələrinin zəruri keçiriciliyə malik nümunələrinin alınması problem olaraq qalmaqdadır. Belə ki, aşqarlanmamış ZnO nazik təbəqələrində oksigen vakansiyaları, hidrogen hesabına yaranan defektlər [5, 6] onların tətbiq imkanlarını məhdudlaşdırır. Bəzi işlərdə müxtəlif metallarla aşqarlanmağa baxmayaraq [2] zəruri parametrlərə malik nazik təbəqələr alınmamışdır.

Düz zolaqlı CdO keçirici nazik təbəqələri isə ZnO-dən fərqli olaraq spektrin görünən oblastında (E_g=2.5 eV) şəffafdır. Onların elektrik və optik xassələrinin geniş temperatur intervalında tədqiq edilmiş günəş energetikasında, qaz sensorlarında, habelə kiçik müqavimətli rezistorlar kimi tətbiq imkanları araşdırılmışdır [7-8]. ZnO-lə müqayisədə (90 %) CdO təbəqələrinin görünən oblastda optik buraxması azdır (60-70 %), lakin alçaq omlu olması nazik təbəqələrinin tətbiq imkanlarını artırır.

ZnO və CdO nazik təbəqələrinin ayrılıqda hər birinin üstün cəhətlərinin artırılması və çatışmayan cəhətlərinin azaldılması üçün elmi ədəbiyyatda son dövrlər ZnO-CdO sistemi bərk məhlullarının nazik təbəqələri tətbiq olunmağa başlanmışdır [9-13]. Belə ki, tərkibin dəyişməsi ilə $Zn_{1-x}Cd_xO$ nazik təbəqələrinin şəffaflıq oblastını, müqavimətini və sındırma əmsalını idarə etmək mümkündür. Elmi ədəbiyyatda $Zn_{1-x}Cd_xO$ bərk məhlullarının nazik təbəqələri əsasən molekulyar şüa epitaksiyası, sol-gel metodu və piroliz kimi metodlarla alınmışdır. Lakin sulu məhluldan elektrokimyəvi çökdürmə metodu bu metodlardan fərqli olaraq daha asan idarə edilə bilən və geniş sahəyə malik nazik təbəqələr almağa imkan verir.

EKSPERİMENTAL NƏTİCƏLƏR VƏ ONLARIN İZAHI.

$Zn_{1-x}Cd_xO$ (x=0.1; 0.2; 0.3; 0.4) nazik təbəqələri sulu məhluldan katod çökdürmə metodu ilə *şüşə/SnO_2* altlıqları üzərində alınmışdır. Anod materialı kimi reaksiyada qrafit elektrodlardan istifadə edilmişdir. Reaksiya məhlulunun turşuluğu azot turşusunun əlavə edilməsi ilə idarə edilşmişdir (pH=3-5). Çökdürülmədə $Zn(NO_3)_2$+ +$Cd(NO_3)_2$+KNO_3+H_2O sulu məhlulundan istifadə edilmişdir. Çökdürülmə otaq temperaturunda və 70-80°C temperaturda aparılmışdır. Çökdürülmə rejiminə nəzarət etmək məqsədilə $Zn_{1-x}Cd_xO$ nazik təbəqələrinin alınmasında $Zn(NO_3)_2$+$Cd(NO_3)_2$+KNO_3+H_2O məhlullarındakı $Zn(NO_3)_2$ və $Cd(NO_3)_2$ duzlarının əvvəlcə ayrı-ayrılıqda, daha sonra isə onların əvvəlki konsentrasiya və pH-turşuluqda qarışığının tsiklik volt-amper xarakteristikaları (voltamoqram) tədqiq edilmişdir. Şəkil 1-də uyğun məhlulların komponentlərinin tsiklik voltamoqramları təsvir edilmişdir. Tsiklik voltamoqramlar xarici gərginliyin-1.6÷ ÷+1.1V intervalında aparılmışdır. Xarakteristikalar əvvəlcə katoda tətbiq edilən xarici sahənin mənfi, sonra isə müsbət istiqamətlərində aparılmışdır. Şəkil 1a- dan göründüyü kimi $Zn(NO_3)_2$ məhlulunda cərəyan xarici gərginliyin U_k=– 0.95V qiymətində artmağa başlayır və katod gərginliyinin –1.2÷–1.55 V-da altlıq üzərinə Zn ionlarının reduksiyası baş verir. Şəkil 1b-də *şüşə*/SnO_2 altlığına çökən $Cd(NO_3)_2$ duzunun sulu məhlulu üçün voltamoqram göstərilmişdir. Şəkildən göründüyü kimi xarici sahənin mənfi istiqamətlərində Cd ionlarının işçi elektrod (altlıq) üzərinə reduksiyası gərginliyin -0.25V qiymətlərindən başlayaraq baş verir. Şəkil 1c-dən göründüyü kimi müxtəlif tərkibli $Zn_{1-x}Cd_xO$ nazik təbəqələrinin formalaşması üçün katod gərginliyinin qiyməti -0.75÷-1.52V intervalında dəyişdirilməlidir. Voltamoqramların tədqiqi üsulu ilə işdə $Zn_{1-x}Cd_xO$ nazik təbəqələrinin müxtəlif tərkiblərdə alınması üçün reaksiya duzlarının mol miqdarı, çökdürmə cərəyanı və gərinliyinin optimal qiymətləri müəyyən edilmişdir (cədvəl 1).



a) b) c)

Şəkil 1. 0.67M $Zn(NO_3)_2$ (a), 0.26M $ZnSO_4$ (b), və (a), (b) məhlulları qarışığının (c) otaq temperaturunda tsiklik volt-amper xarakteristikaları

Cədvəl 1.

$Zn_{1-x}Cd_xO$ nazik təbəqələrinin tərkibi	Reaksiyaya daxil edilən kimyəvi duzların mol miqdarı		Çökdürülmə cərəyanı sıxlığı və gərginliyi	
x	$Zn(NO_3)_2$ (M)	$Cd(NO_3)_2$ (M)	J, mA/sm^2	U_k(V)
0.1	0.92	0.12	30-32	–0.75 ÷ –1.52
0.2	0.78	0.2	25-27	–0.75 ÷ –1.52
0.3	0.67	0.26	23-24	–0.75 ÷ –1.52
0.4	0.48	0.54	20-22	–0.75 ÷ –1.52

Elektrokimyəvi çökdürülmə prosesinin davametmə müddətindən asılı olaraq 0.02-1 mkm qalınlıqlı $Zn_{1-x}Cd_xO$ nazik təbəqələri alınmışdır. Müəyyən edilmişdir ki, nazik təbəqələrin səthinin morfologiyası çökdürmə potensialından aslılıdır. Şəkil 2-də çökdürülmə katod potensialının -0.9 V (şəkil 2a), - 1.2 V (şəkil 2b), -1.28 V(şəkil 2c) və -1.35 V (şəkil 2d) qiymətlərində alınmış $Zn_{0.7}Cd_{0.3}O$ nazik təbəqələrinin səthinin atom qüvvət mikroskopunda (AFM) alınmış fotoşəkilləri təsvir edilmişdir. Atom qüvvət mikroskopunda aparılmış tədqiqatlar əsasında müəyyən edilmişdir ki, katod potensialının -0.9 V qiymətlərində alınmış $Zn_{0.7}Cd_{0.3}O$ nazik təbəqələrinin səthi məsaməli quruluşa malik olub qeyri-bərabər paylanmış, ölçüləri 7÷100 nm intervalında dəyişən kristallitlərdən ibarətdir. Katod potensialının qiymətinin cüzi olaraq artması ($-1.22<U\leq-1.25$ V) nazik təbəqələrin səth quruluşunu kəskin olaraq dəyişir. Belə ki, səthdəki məsamələrin konsentrasiyası kəskin olaraq azalır, kristallitlərin ölçüsü kiçilir (5÷7 nm) və nazik təbəqələr bircins nanoquruluşlu səth nümayiş etdirir. Katod çökdürmə potensialının -1.28÷-1.32 V qiymətlərinə qədər artması ilə, nazik təbəqələrin səthindəki kristallitlərin ölçüsünün artması ilə bərabər səthdəki defektlərin konsentrasiyası da kəskin olaraq azalır. Lakin potensialın sonrakı artımı $U>-1.34$ V səthdə yenidən qeyri-bircinslik dərəcəsini artırır. Qeyd edək ki, katod potensialının $U>-1.34$V qiymətlərində alınmış nazik təbəqələrin altlığa adgeziyası çox zəif olur. Belə ki, bu gərginliklər də yalnız 0.5nm qalınlıqlara qədər zəruri adgeziyaya malik $Cd_{1-x}Zn_xO$ nazik təbəqələri almaq mümkündür. Katod potensialının qiymətindən asılı olaraq $Cd_{1-x}Zn_xO$ nazik təbəqələrinin optik buraxma əmsalının da qiyməti dəyişir.



a)



b)



c)



d)

Şəkil 2. Katod potensialının -0.9 V (a), - 1.2 V (b), -1.28 V(c) və -1.35 V (d) qiymətlərində alınmış $Zn_{0.7}Cd_{0.3}O$ nazik təbəqələrinin səthinin AFM fotoşəkilləri.



Şəkil 3. Müxtəlif katod potensiallarında çökdürülmüş $Zn_{0.7}Cd_{0.3}O$ nazik təbəqələrinin optik buraxma spektrləri

Şəkil 3-də katod potensialının -0.9V; -1.2V; -1.28V və -1.35V qiymətlərində alınmış $Zn_{0.7}Cd_{0.3}O$ nazik təbəqələrinin optik buraxma spektrləri təsvir edilmişdir. Şəkildən göründüyü kimi, 400-830 nm dalğa uzunluğu oblastında nazik təbəqələrin optik buraxma əmsalı 52-92%-ə bərabərdir. Nazik təbəqələrin optik buraxma əmsalının qiymətinin bu cür kifayət qədər olması, onlardan günəş enerjisi çeviricilərində istifadə etməyə imkan verir. Katod potensialının -0.9 V qiymətində çökdürülmüş nazik təbəqələrin fundamental udma sərhəddi mürəkkəbdir və o qədər də kəskin deyil. Bu da onu göstərir ki, katod potensialının -0.9V qiymətində çökdürülmüş nazik təbəqələrinin kristal quruluşunda bir yox, bir neçə faza müsahidə edilir (fazaların seqreqasiyası). Katod potensialının -1.2V-a qədər artması ilə fundamental udma sərhəddi kəskinləşir və nazik təbəqələrdə optik buraxma əmsalı 94%-ə qədər artır ki, bu da nazik təbəqələrdə vahid fazanın formalaşdığını göstərir. Katod potensialının -1.35V qiymətlərində alınmış nazik təbəqələrdə yenidən fazaların seqreqasiyasi hesabına fundamental udma sərhəddi mürəkkəbləşir və optik buraxma əmsalı 65%-ə qədər azalır.

İşdə katod potensialının -1.2 V qiymətində çökdürülmüş müxtəlif tərkibli $Zn_{1-x}Cd_xO$ nazik təbəqələrinin optik xassələri tədqiq edilmişdir. Müəyyən olunmuşdur ki, tərkibdə Cd-un miqdarının artması ilə fundamental udma sərhəddi uzun dalğa tərəfə sürüşür. Nazik təbəqələrin qadağan olunmuş zolağının eni $(\alpha \cdot h\nu)^2=A(h\nu-E_g)$ ifadəsi əsasında hesablanmışdır. Burada, α- udma əmsalı, A- sabitdir. İfadə əsasında qurulmuş qrafiklərin xətti hissəsinin enerji oxuna ektrapolyasiyası ilə nazik təbəqələrin qadağan olunmuş zolağının eni müəyyənləşdirilmiş (cədvəl 2) və elmi ədəbiyyatdakı mövcud qiymətlərlə [14] müqayisə edilmişdir.



Şəkil 3. Müxtəlif katod potensiallarında çökdürülmüş $Zn_{0.7}Cd_{0.3}O$ nazik təbəqələrinin optik buraxma spektrləri

Cədvəl 2.

$Zn_{1-x}Cd_xO$ nazik təbəqələrinin tərkibi	Qadağan olunmuş zolağın eni E_g (eV)
x=0.1	3.2
x=0.2	3.12
x=0.3	3.06

[1] *G. Bhavana, B. Nitu, Sh. Shyambihari, J. Deepti, G. Vganesan.* Materials Sciences and Applications, v. 2, 2011, p. 643-648.

[2] *Su.Xueqiong, W.Li, Ch.Jiangbo, W.Xiaojing, Zh. Xin Ping.* J. Phys. D:Appl.Phys., v. 44, 2011, p.265-267.

[3] *Z. Yang, L. Li, J.Y. Kong and J.L. Liu.* Applied Physics Letters, v. 95, 2009, p. 232-238

[4] *D.C. Look.* Mater. Sci. Eng., B 80, 2001, p. 383-388

[5] *A.F. Kohan, G. Ceder and D. Morgan*. Phys. Rev. B 61, 2000, p. 15019 -23

[6] *G. Chris.* Physica B, v. 308–310, 2001, p. 899–903

[7] *M. Vigneshwaran, R. Chandiramouli, B.G. Jeyaprakash and D. Balamurugan*. Journal of Applied Sciences, v.12, 2012, p.1754-1757

[8] *B. Gokul, P. Matheswaran, R. Sathyamoorthy.* J. Mater. Sci. Technol., v.29 (1), 2013, p.17-21.

[9] *S. Corinne, H. Nadia, V. Christèle, A.Gaelle, L.Jean-Michel, J. François, L. Alain, G. Pierre and S. J. Vincent.* Vac. Sci. Technol. A, v. 29, No. 3, 2011, p. 03A114-1-4

[10] *Y. Caglar, M. Caglar, S. Ilican, A. Ates.* J. Phys.D: Appl. Phys., v. 42, 2009, p.1–8

[11] *D. W. Ma, Z.Z. Ye, L.L.Chen.* Phys. Stat. Sol. (a), v. 201, No 13, 2004, p. 2929-2933

[12] *O. Vigial, L. Vaillant, F. Cruz, G. Santana, A. Morales-Aceved, G. Contreras-Puente*. Thin Solid Films, v.361–362, 2000, p. 53–55

[13] *K. Sakurai, T. Takage, T. Kubo, D. Rajita, T. Nanabe, H. Takasu, S. Fujita*. J. Cryst. Growth, v. 237–239, 2002, p. 514–517

[14] *W. Zhi-Jun, L. Shou-Chun, W. Lian-Yuan and L.Zhen.* Chin. Phys. B, v. 18, 2009, p. 2992-97.

H.M. Mamedov, V.J. Mamedova

INFLUENCE OF CATHODIC POTENTIAL OF DEPOSITION ON OPTICAL PROPERTIES AND SURFACE MORPHOLOGY OF FILMS $Zn_{1-x}Cd_xO$

In this paper, the films of $Zn_{1-x}Cd_xO$ ($0.1 \leq x \leq 0.4$) were prepared by the method of electrochemical deposition on the surface of *glass*/SnO_2 substrates. The values of cathode potential of deposition are defined (U =-1.2 V) which provide the optimum values of optical parameters of films. The band gap of films is determined on the base of optical investigations.

Г.М. Мамедов, В.Дж. Мамедова

ВЛИЯНИЕ КАТОДНОГО ПОТЕНЦИАЛА ОСАЖДЕНИЯ НА ОПТИЧЕСКИЕ СВОЙСТВА И МОРФОЛОГИЮ ПОВЕРХНОСТИ ТОНКИХ ПЛЕНОК $Zn_{1-x}Cd_xO$

В работе методом электрохимического осаждения полупрозрачные проводящие пленки $Zn_{1-x}Cd_xO$ ($0.1 \leq x \leq 0.4$) получены на поверхности подложек *стекло*/SnO_2. Определены значения катодного потенциала осаждения (U=-1.2 В) при котором обеспечивается оптимальное значение оптических параметров пленок. На основе оптических исследований определены значение ширины запрещенной зоны пленок.

Qəbul olunma tarixi: 25.11.2014

"SUBSTRATE" KONFİQURASİYALI CdTe ƏSASLI GÜNƏŞ ELEMENTLƏRİ

N.M. FATHİ, E.A. BAĞIYEV, A.M. KƏRİMOVA, Y.N. ƏLİYEVA, N.O. BALAYEVA, R.V. VƏLİYEV, Z.Q. MƏMİYEV, A.H. BAYRAMOV

AMEA-nın H.M. Abdullayev adına Fizika İnstitutu, H.Cavid 33, Bakı, AZ 1143, Azərbaycan

E-mail: bayramov@physics.ab.az

CdTe, CdS, ZnO və ZnO:Al nazik təbəqələri uyğun olaraq yaxın məsafəli sublimasiya (CSS), kimyəvi vanna üsulu (CBD) və maqnetron tozlandırma üsulu ilə hazırlanmışdır. Təbəqələr Rentgen diffraktometri (XRD) və atom qüvvə mikroskopu (AFM) vasitəsi ilə tədqiq olunmuşdur. Alınmış təbəqələrin kristallaşmadan asılı olaraq elektrik xassələri öyrənilmişdir. Alınmış təbəqələr əsasında "substrate" konfiqurasiyalı günəş elementləri istehsal olunmuşdur.

PACS: 6855 Jk

Açar sözler: yaxın məsafəli sublimasiya, nazik təbəqələr, günəş elementləri, kimyəvi vanna üsulu.

1. GİRİŞ.

Fotovoltaik materiallar ailəsində kadmium tellurid yüksək effektivliyə malik polikristallik nazik təbəqəli CdTe/CdS günəş elementlərinin hazırlanması üçün çox əlverişli materialdır [1,2], çünki onun qadağan olunmus zolağının eni 1.46 eV təşkil edir, optimala yaxındır və görünən oblastda yüksək udulma əmsalına malikdir. Polikristallik CdTe əsaslı nazik təbəqəli günəş elementlərinin laboratoriya nümunələrində nanoquruluşlu CdS:O pəncərə qatı və modifikasiya olunmuş strukturdan istifadə edilməklə maksimum 16.5%-lik effektivlik əldə edilmişdir [2]. Kubik CdTe və heksaqonal CdS arasındakı böyük qəfəs uyğunsuzluğuna (təxminən 9.7%) baxmayaraq, keçid oblastında qarşılıqlı diffuziya hesabına bu uyğunsuzluq aradan qaldırılır və buna görə də CdTe/CdS günəş elementləri əsasən yüksək effektivliklə xarakterizə olunur [3]. $CdCl_2$ termik emalı CdTe/CdS cihazlarının hazırlanma prosesində CdTe və CdS arasındakı qarşılıqlı diffuziyaya aparan açar mərhələ kimi nəzərdə tutulub. Bu, adətən, həm CdTe səthi üzərinə $CdCl_2$ layının çökdürülməsi və sonradan atmosfer mühitində emalı ilə, həm də strukturun $CdCl_2$ buxarlarında emalı ilə yerinə yetirilir. Birinci üsulda $CdCl_2$ qalınlığının optimal qiyməti əsas qatın texnologiyasından asılı olaraq geniş intervalda dəyişir [4].

CdTe əsaslı nazik təbəqəli günəş elementləri ənənəvi olaraq, 1mm qalınlığında Corning 7059 şüşə altlıq üzərinə çökdürülmüş ikiqatlı SnO_2 (500nm qalınlıqlı keçirici qat və keçirici olmayan100 nm qalınlıqlı bufer qat), 80-100 nm CdS təbəqəsindən, 5-10 mkm CdTe təbəqəsi və HgTe-Cu_2Te tərkibli arxa kontaktdan ibarətdir. Bu konfiqurasiyalı günəş elementlərinin maya dəyərini artıran bəzi çatışmamazlıqlar var: ən yaxşı absorbent kimi 8-10 mkm qalınlıqlı CdTe əsaslı materialın istifadəsi, şüşə altlıqdan natriumun diffuziyasının qarşısını almaq üçün bahalı borosilikat Corning 7059 şüşəsindən istifadəsi, mürəkkəb arxa-kontakt prosesinin üç addımdan ibarət olması: CdTe səth aşınması (həmçinin nanohissəciklərin aşınması da adlanır), Cu_xTe və HgTe tərkibli xüsusi hazırlanmış qrafit pastasının tətbiqi və yekun Ag-pastası qatı [5].

Göstərilən çatışmamazlıqlar bütün ənənəvi texnologiyaların məhdud qabiliyyətini və CdTe nazik təbəqəli günəş elementlərinin dizayn və optimallaşdırılması üçün yeni yanaşmaların zəruriyyətini göstərir. Bu işdə, modifikasiya olunmuş konfiqurasiyaya malik olan CdTe əsaslı nazik təbəqəli günəş elementlərinin hazırlanması üzrə nəticələr və onların fotoelektrik xassələri verilmişdir.

2. TƏCRÜBƏ

Şəkil 1-də modifikasiya olunmuş quruluş göstərilmişdir:



Şəkil 1. Şüşə/selenləşdirilmiş Mo/CdTe/CdS/ZnO/ZnO:Al qurğusunun sxematik təsviri.

CdS/CdTe günəş elementlərinin hazırlanmasında selenləşdirilmiş molibdenlə örtülmüş əhəngli şüşə altlıqlardan istifadə olunmuşdur. 2 mkm qalınlıqlı CdTe nazik təbəqələri yaxın məsafəli sublimasiya üsulu ilə altlıqlar üzərinə çökdürülmüşdür (Two Zones Furnace for PVD (CSS) Processing-OTF-1200X-RTP-II, MTI,USA). Çökdürülmə prosesi təcrid olunmuş həcmdə, sistemin ümumi 16 torr təzyiqində (1 torr oksigen və 15 torr helium) altlıq və mənbənin uyğun olaraq 580°C və 660°C temperaturlarında aparılmışdır.

Kadmium asetat ($CdAc_2$, 99.99%), ammonium asetat (NH_4Ac, 99.99%), tiosidik cövhəri $(NH_2)_2CS$, 99+%) və müntəzəm əlavə olunan ammonium hidroksidin (NH_4OH) ionsuzlaşdırılmış suda məhlulu 90°C temperaturunadək qızdırılaraq CdS çökdürülməsində istifadə olunmuşdur.

$CdCl_2$ emalı "quru" üsuldan istifadə edilməklə aparılmışdır. Bunun üçün CdS/CdTe strukturları vacuum kamerasında 100 torr oksigen və 400 torr helium mühitində 400°C temperaturunda 5-7 dəqiqə müddətində $CdCl_2$ buxarında termik emal olunmuşdur.

ZnO və ZnO:Al nazik təbəqələri maqnetron tozlandırma üsulu ilə oksigen/arqon qaz mühitində müxtəlif O/Ar faizlərində 200-400°C qədər qızdırılmış, qalınlığı 1.0 mm, ölçüsü 2x2 sm əhəngli şüşə altlıqlar üzərinə çökdürülmüşdür (EVOVAC Deposition system, Angstrom Engineering Inc., Canada). Çökmə sürəti 1Å/san təşkil etmişdir.

Təbəqələrin rentgen analizi Bruker D2 Phaser (Germany) diffraktometrində *θ-2θ* bucaq altında Ni ilə filtrlənmiş CuK *α* şüa (*λ*=1.54060 Å) mənbələrindən istifadə olunaraq aparılmışdır.

Polikristalik təbəqələrdə dənələrin orta ölçüsü Şerrer düsturu ilə hesablanmışdır.

$$D = \frac{\alpha\lambda}{\beta\cos\theta}$$

Burada *D*-dənələrin ölçüsü, *α*-sabit kəmiyyətdir (0.9 qədər), *λ* - dalğa uzunluğu (1.54060 Å), *β* isə diffraksiya pikinin maksimumunun yarımeni (FWHM). Kristallıq (kristallizasiya dərəcəsi) DIFFRAC.EVA.V2.1 PC proqramı vasitəsilə hesablanmışdır.

Nazik təbəqələrin topoqrafik analizi Smart SPM 1000 AIST NT (Tokyo Instruments, Japan) qurğusunda aparılmışdır.

Təbəqələrin keçiriciliyi standart dördzond üsulu ilə HL5500PC Hall system (Nanometrics Inc., USA) qurğusunda tədqiq edilmişdir.

Qurğunun I-V parametrləri 100 mW/cm^2 güclü günəş imitatoru altında Solar cell I-V Testing System IV16 (PV Measurements, Inc.) cihazında ölçülmüşdür.

Bütün tədqiqatlar otaq temperaturunda aparılmışdır.

3. NƏTİCƏLƏR VƏ MÜZAKİRƏLƏR

Kimyəvi vanna üsulu ilə alınmış *n* tip CdS təbəqələrinin müqaviməti 1.2x10^4 Ωcm olmuşdur. Emal olunmamış CSS üsulu ilə alınmış CdTe təbəqələri *p* tip keçiricilik göstərmiş və müqavimətləri təxminən 10^{7}Ωcm olmuşdur. 400 torr He və 100 torr O_2 atmosferində 400°C temperaturunda 7-10 dəqiqə müddətində aparılmış $CdCl_2$ emalı müqaviməti 6x10^2 Ωcm- ə qədər azaltmışdır.



Şəkil 2. CdS təbəqələrinin XRD spektri.

CdS təbəqələri qəfəs parametri a və c uyğun olaraq 4121 Å və 6716 Å olan vürsit tipli heksaqonal quruluşa (fəza qrupu P63mc) malikdirlər (şəkil 2). Digər tərəfdən alınmış CdTe təbəqələri *a*=6485 Å olduqda sfalerit tipli kubik quruluşla (fəza qrupu F43m) kristallaşır (şəkil 3). CdS və CdTe təbəqələri uyğun olaraq [002] və [111] istiqaməti boyunca üstün oriyentasiyaya malikdir.

4 və 5 şəkilləri uyğun olaraq CdS və emal olunmamış CdTe təbəqələrinin AFM təsvirini göstərir.



Şəkil 3. CdTe təbəqələrinin XRD spektri.



Şəkil 4. CdS təbəqələrinin AFM təsviri.



Şəkil 5. CdTe təbəqələrinin AFM təsviri.

Şəkil 4-dən görünür ki, CdS təbəqəsində 60 nm-lik dənələr kiçik ölçülü dənələrin arasında sıx yerləşir. CdTe təbəqəsi 3-5 mkm ölçülü sıx qablaşmış dənələrdən təşkil olunub (Şəkil 5). Qeyd etmək lazımdır ki, CdTe-da $CdCl_2$ "quru" emalından sonra quruluş xassələrində və səth morfologiyasında heç bir əhəmiyyətli dəyişiklik baş vermir, və bu hal CSS üsulu ilə alınmış böyük dənəli

CdTe təbəqələrinə uyğundur [6]. İlkin alınmış və $CdCl_2$ ilə emal olunmuş CdTe təbəqələri təmiz cilalanmış səthə malikdirlər və dənələrin orta ölçüsü təxminən 3-4 mkm-dir.

Temperaturu 200°C olan altlıqların üzərinə çökdürülmüş ZnO və ZnO:Al nazik təbəqələrinin rentgen analizi təbəqələrin amorf olduğunu göstərmişdir. Şəkil 6-da 0-6% oksigen/arqon qarışığında və altlıqların temperaturunun 300-400°C qiymətində ZnO və ZnO:Al nazik təbəqələrinin rentgenoqramı göstərilir.



Şəkil 6. ZnO və ZnO:Al nazik təbəqələrin X-Ray diffraksiya mənzərəsi.

0-6% (O/Ar) qarışığı mühitində 300°C və 400°C altlıqlara çökdürülmüş ZnO təbəqələrinin kristallığı ZnO:Al təbəqələrinə nisbətən aşağıdır (şəkil 7) və uyğun olaraq 2% və 4% təşkil edir.

300°C temperaturlu altlıqlar üzərinə çökdürülmüş ZnO:Al təbəqələrinin kristallaşma dərəcəsi digərlərinə nisbətən aşağıdır. Xüsusən, altlıqların 400°C temperaturunda 2% O_2 mühitində çökdürülmüş təbəqələr maksimum yüksək kristallıq dərəcəsi göstərir və oksigenin parsial təzyiqi azaldıqca azalır. Altlıqların 400°C temperaturunda ZnO:Al təbəqələrinin yüksək kristallıq dərəcəsi göstərməsi təbəqələrin çökdürülməsi zamanı alüminiumun rüşeymləmə prosesində əhəmiyyətli dərəcədə iştirak etməsindən qaynaqlanır. Altlıqların 400°C temperaturunda ZnO:Al təbəqələrində dənələrin ölçülərinin artması bu fikri təsdiqləyə bilər. Bütün tədqiqatlar zamanı, ZnO:Al nazik təbəqələri *n*-tip elektrik keçiriciliyi göstərir. 0-6% oksigen/arqon qarışığı nisbətində və altlıqların 200-400°C temperaturunda hazırlanmış ZnO:Al nazik təbəqələrinin keçiriciliyi şəkil 8-də göstərilmişdir. Altlığın 400°C temperaturunda və təmiz arqon atmosferində alınmış təbəqələrin keçiriciliyi $\sigma \sim 3.5\times10^2\ \Omega^{-1}\cdot sm^{-1}$ olmuşdur və O/Ar qarışığında oksigenin qatılığından asılı olaraq keçiriciliyin azalması müşahidə olunmuşdur. Altlıqların 200°C və 300°C temperaturunda çökdürülmüş təbəqələrin keçiriciliyi əhəmiyyətli dərəcədə azalir və 2% O/Ar qarışığı mühitində maksimum müşahidə olunur.



*Şəkil 7.*ZnO və ZnO:Al təbəqələrinin kristallıqdan asılılığı.



Şəkil 8. 1- 200°C, 2- 300°C, 3- 400°C altlıq temperaturunda çökdürülmüş ZnO:Al təbəqələrinin keçiriciliyi.

Məlum olduğu kimi, 400°C temperaturunda oksigenin iştirakı ilə çökdürülmüş ZnO:Al təbəqələrinin keçiriciliyinin azalması oksigen artıqlığı zamanı Zn vakansiyalarının formalaşması və ZnO birləşməsində akseptor tipli defektlərin yaranması ilə izah olunur [7-9].

Günəş elementlərinin tədqiqi üçün biz, şüşə/selenləşdirilmiş Mo/CdTe/ CdS/ZnO/ZnO:Al cihaz quruluşları seriyası hazırladıq. Cihaz strukturları 0.2sm^2 kvadrat hissələrə kəsilmiş, 1x2 sm^2 altlıq üzərində hazırlanmış və əldə olunmuş qurğuların I-V xüsusiyyətləri ölçülmüşdür. Ən yüksək effektivlik parametrləri V_{oc}=0.69V, J_{sc} =21,5mA/sm2, dolma faktoru (*FF*)=56,1% və ümumi sahənin çevirmə effektivliyi 8,4% alınmışdır (Şəkil 9).



Şəkil 9. Şüşə/selenləşdililmiş Mo/CdTe/ CdS/ZnO/ZnO:Al cihazının I-V xarakteristikası.

Qeyd etmək lazımdır ki, hazırlanmış qurğuların ən yüksək effektivliyi altlığın mərkəzi hissəsində müşahidə olunub. Eyni zamanda, qurğuların hazırlanmasında istifadə olunan altlığın kənarından kəsilmiş hissələrdə aşağı effektlivlik müşahidə olunur. Effektivliyin kəskin azalmasının ən əsas səbəbi CdTe təbəqələrinin kənarlarında yüksək sıxlıqlı boşluqların meydana gəlməsi nəticəsində təbəqələrin mərkəzi hissəsi ilə müqayisədə kənarlarda qalınlığın əhəmiyyətli azalmasıdır.

4. NƏTİCƏ

"Substrate" konfiqurasiyalı CdTe əsaslı günəş elementləri CdTe nazik təbəqələri üçün omik kontakt olan selenləşmiş molibdendən istifadə etməklə istehsal olunmuşdur.Alınmış batareyalar: V_{oc}=0.69V, J_{sc}=21,5mA/sm2, dolma faktoru (*FF*)=56,1% və ümumi sahənin çevirmə effektivliyi 8,4% parametrləri ilə xarakterizə olunmuşdur. Bu konfiqurasiya, ənənəvi texnologiya ilə müqayisədə, ucuz əhəngli şüşə və sadələşdirilmiş kontaktdan istifadə etməklə 1-2 mkm qalınlıqlı CdTe əsaslı materialın emalının mümkünlüyünü göstərir.

Minnətdarlı: Bu iş, Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondu tərəfindən EİF-2012-2(6)-39/02/1 nömrəli layihə ilə dəstəklənib.

[1] *H.R. Moutinho, F.S. Hasoon, F.A. Abufoltuh, L.L. Kazmerski.* Journal Vacuum Science Technology. 13, 1995, 2877-2883.
[2] *Wu X.* Solar Energy, 77 (2004) 803-814
[3] *D. G. Jensen, B. E. McCandless, and R. W. Birkmire*. 25th Photovoltaic Specialists Conference,
[4] 1996, p. 773.
[5] *H. Raushenbach*. Solar Cells Array Design,New York: Litton Education Publishing,1980, 250
[6] *D. S. Albin, S. H. Demtsu and T. J. McMahon.* Thin Solid Films, 515, 2007, 2659- 2668.
[7] *B. E. McCandless and J. R. Sites*. Cadmium Telluride Solar Cells: Handbook of Photovoltaic Science and Engineering, A. Luque and S. Hedegus (eds.). USA:New York: Wiley., 2003.
[8] *F. Tuomisto, K. Saarinen, D. Look and G. Farlow*. Phys. Rev., B 72, 2005, 085206.
[9] *F. Tuomisto, V. Ranki, K. Saarinen and D. Look.* Phys.Rev. Lett., 91, 2003, 205502.
[10] *A. Janotti and C. Van de Walle.* Rep. Prog. Phys. 72, 2009,126501.

N.M. Fathi, E.A. Bagiyev, A.M. Kerimova, Y.N. Aliyeva, N.O. Balayeva, R.V. Veliyev, Z.Q. Mamiyev, A.H. Bayramov

"SUBSTRATE" CONFIGURED CdTe-BASED SOLAR CELLS

CdTe, CdS, ZnO and ZnO:Al thin films were prepared by Close-spaced sublimation (CSS), Chemical Bath Deposition (CBD) and Magnetron sputtering methods, respectively. The films were investigated by X- Ray Diffraction (XRD) and Atomic Force Microscopy (AFM) methods. Dependence of electrical properties on crystallinity degree of the obtained films were studied. "Substrate" configured solar cell devices on the basis of obtained films were constructed.

Н.М. Фатхи, Э.А. Багиев, А.М. Керимова, Е.Н. Алиева, Н.О. Балаева, Р.В. Велиев, З.Г. Мамиев, А.И. Байрамов.

СОЛНЕЧНЫЕ ЭЛЕМЕНТЫ КОНФИГУРАЦИИ "SUBSTRATE" НА ОСНОВЕ CdTe

Получены тонкие плёнки CdTe, CdS, ZnO и ZnO:Al методами сублимации с ближнего расстояния (XRD), соляной ванны (CBD) и магнетронного распыления, соответственно.

Тонкие плёнки исследованы методами рентгенодифракционного анализа (РДА) и атомно-силовой микроскопии (АСМ). Изучена зависимость электрических свойств от степени кристалличности в данных плёнках. На основе полученных плёнок изготовлены солнечные элементы конфигурации "substrate".

Qəbul olunma tarixi: 02.12.2014

γ - ŞÜALANMA İLƏ $CuGaSe_2$ MONOKRİSTALINDA YARANAN QISA-QAPANMA CƏRƏYANI, SPEKTRİN İNVERSİYASI

İ. QASIMOĞLU, İ.A. MƏMMƏDOVA, Q.S. MEHDİYEV, ZƏFƏR QƏDİROĞLU, N.V. MAHMUDOVA, M. ƏLİYEV, Ə.İ. BAĞIROV, İ. NƏSİBOV

AMEA-nın H.M. Abdullayev adına Fizika İnstitutu,
H.Cavid 33, Bakı, AZ 1143, Azərbaycan
E-mail:gasimoglu@yahoo.com

Təcrübə nəticəsində lazer şüası və γ-şüasının polyarizəedici təsirindən sonra, $CuGaSe_2$ monokristalında qısa-qapanma cərəyanının qiymətində mərhələli dəyişilmə, sonda isə inversiya baş verir. Fiziki parametrin (qısa qapanma cərəyanı) dəyişməsinin səbəbinin nümunədə əvvəlcədən mövcud olan, sonra isə lazer və γ -şüalarının təsiri nəticəsində yaranan aşqar (donor, akseptor) səviyyələrinin konsentrasiyaları nisbətinin dəyişməsi hesabına baş verdiyi bildirilir.

Pacs : 61.80. Ed
Açar sözlər: qısa-qapanma cərəyanı, γ -şüalanma, lazer şüası, donor, akseptor.

$CuGaSe_2$ monokristalı $A^{I}B^{III}C^{VI}_2$ yarımkeçirici birləşmələr ailəsinə mənsubdur, xalkopirit sturukturunda (42m fəza qrupunda) kristallaşır [1]. Obyektin qadağan olunmuş zonası, günəş elementləri üçün optimal olan qiymətə yaxındır [1,65 eV] [2]. Bu birləşmə yarımkeçirici cihazqayırmada, xüsusilə fotoelementlərin, işıq-qeydedici cihazların hazırlanmasında xüsusi əhəmiyyətə malikdir [3]. Yeni işdə isə lazer və γ-şüalarının təsirindən sonra qısa-qapanma cərəyanının qiymətindəki dəyişmədən və spektrin inversiyasından bəhs olunur.

Məsələnin qoyuluşu: məqsəd lazer və qamma şüasının təsirindən sonra nümunədə yaranan siqnalın qiymətinin və istiqamətinin dəyişməsini nəzərə alaraq, bağlayıcı yarımkeçirici açarların hazırlanmasında tətbiqinin mümkünlüyünü təcrübə yolu ilə təsdiq etmək, öz əvvəlki analoqlarından üstünlüklərini göstərməkdir. Təcrübə, şüalanmadan əvvəl və şüalanmadan sonra alınan spektrlərin müqayisə olunması yolu ilə aparılıb.

Təcrübənin aparılması: $CuGaSe_2$ monokristalı qaz daşıyıcıları üsulu ilə alınmışdır, işığa həssasdır. Elektrik hərəkət qüvvəsinin işarəsinə görə, keçiriciliyin *p*-tip olduğu müəyyənləşdirilib. Otaq temperaturunda müqavimət kΩ-dur. Kontaktlar gümüş pasta ilə qoyulmuşdur, omikdir. İşıqlanma dəqiq MDR-23 optik cihazı ilə aparılmışdır. Lazerin nümunədən məsafəsi 10 sm-dir. Şüalar (işıq, lazer) nümunənin səthinə bir istiqamətdən düşür. 1-ci (a) şəklində cərəyanın dalğa uzunluğundan asılılığını əks etdirən normal bir spektri müşahidə edirik. Tək bir lazer şüasının nümunədə yaratdığı cərəyanın spektrinin düz xətt olması, monoxromatik işıqla birgə təsirdən sonra yaranan fərqi görməyə imkan verir. Lazer (λ=0,63mkm) şüasının obyektə bu cür təsiri tətbiq üçün çox maraqlıdır. Spektrin özünə paralel yerini dəyişməsini biz γ- şüasının bir neçə qiymətində təcrübədə müşahidə etdik. Şüanın böyük qiymətində inversiya alınır. Yaranan siqnal dəqiq elektrometrik voltmetrlə (B7-30) ölçülmüşdür.



Şəkil 1. a - spektral asılılıq $\dot{I}_{qq}$ ~$F(\lambda)$, b - lazer (0,63mkm) xətti, c - lazer və monoxromatik işığın birgə bir istiqamətdə təsirindən sonra spektral asılılıq (*T*-300 K).

Nümunənin normal səthinə monoxromatik işığın və lazer şüasının bir istiqamətdə birgə təsiri zamanı keçiricilikdə yaranan mərhələli dəyişməni müşahidə etdik və təcrübələri γ- şüaları ilə davam etdirdik. Nümunəyə qurğuşun konteynerdə yerləşən Co^{60} izotopundan çıxan γ- şüalarla təsir edilmişdir. γ-şüası kvantının enerjisi 1,25MeV-dur. 2-ci şəkildə γ- şüasının müxtəlif intensivliklərində spektral paylanmanın qrafiki təsvirləri verilmişdir.



Şəkil 2. a - spektral asılılıq $\dot{I}_{qq}$ ~F (λ), b - E=30P/c, c - E=45 P/c, d - E=60P/c γ -şüası dozasının təsirindən sonra alınmış əyrilərdir (300 K).

Alınan nəticələrin müzakirəsi: Lazer və γ-şüalarının təsirindən sonra qısa-qapanma cərəyanının qiymətinin artıb-azalmasının, yaranan sərbəst elektron və deşiklərin konsentrasiyasının dəyişilməsi hesabına olduğunu düşünürük. $CuGaSe_2$ monokristalında donor və akseptor tipli aşqarlar mövcuddur. O baxımdan həmin kristalların elektrik keçiriciliyi bu aşqarların konsentrasiyasından kəskin asılıdır. Həmin kristallarda sistemin sərbəst enerjisinin azalması dərin səviyyələr tərəfindən yükdaşıyıcıların tutulması hesabına baş verir. Nümunələrin sərbəst enerjisindəki bu dəyişmə, şüalanma zamanı əmələ gələn defektlər hesabına ola bilər. Əsas yükdaşıyıcılara məxsus keçiricilik aşqarlar tərəfindən kompensə olunur. Lazer və γ –şüalarının təsirindən sonra, keçiricilik zonasına yaxın yerləşən donor tipli defektlərin daha çox yaranması ehtimal olunur. Qadağan olunmuş zolağı nisbətən böyük olan kristallar, o cümlədən $CuGaSe_2$, üçün lazer və γ –şüalarının təsirindən sonra yaranan defektlər əsas yükdaşıyıcıları kompensasiya edır, keçiriciliyin qiymətini dəyişir. Ona görə də bu tip kristallarda, şüalanmadan sonra, başlanğıc vəziyyətindən asılı olmayaraq, keçiricilik xüsusi hal almış olur. Qeyd etmək lazımdır ki, kompensasiya halının yaranması təkcə keçiriciliyin qiymətini dəyişmir, həmçinin yükdaşıyıcıların konsentrasiyasını dəyişdirən mərkəzlərin yaranmasına səbəb olur. Yarımkeçiricilərin elektrik və optik xassələrinin qiymətləndirilməsində bu mərkəzlərin böyük rolu vardır. Kristallarda daxili enerji balansının pozulması üçün donor və akseptor tipli defektlərin konsentrasiyaları arasındakı nisbət dəyişməlidir [5]. *p*-tip nümunələrdə keçiriciliyin qiyməti əvvəlcə artmağa başlayır (kiçik dozalarda) spektr özünə paralel olaraq yuxarıya sürüşür. γ-şüasının böyük qiymətində ionlaşma hesabına keçiricilikdə iştirak edən yükdaşıyıcıların konsentrasiyası (*p*-tiplər üçün deşiklərdə) kəskin surətdə azalır, spektr aşağıya enir, yəni inversiya edir. Həmçinin γ- şüalanma dozasının artmasına uyğun olaraq deşiklərin rekombinasiyası hesabına keçiriciliyin azalması müşahidə olunur [6]. Fermi səviyyəsi qadağan olunmuş zolağın mərkəzinə doğru hərəkət edir, nümunənin müqaviməti artır, keçiricilik azalır. Biz (1) və (2) şəkillərində bunu müşahidə edirik. Spektrin aşağıya sürüşməsi, əsasən, γ-şüasının böyük qiymətində baş verir. İnversiya, akseptor tipli defektlərin daha çox yaranması hesabına müşahidə olunur [7]. Obyektin öz analoqlarından fərqi ondan ibarətdir ki, qaranlıq cərəyanı çox kiçik qiymətə malikdir və zəif radioaktiv şüalara həssaslığı ilə fərqlənir.

AMEA Radiasiya Problemləri Institutunun rəhbərliyinə, İzotop mənşəli şüa mənbələri Elmi Təcrübə Şöbəsinin əməkdaşlarına, Ələsgərov Əzizbala Mirzəbala oğluna, Quliyev Ağaqulu Bilal oğluna, Nəbiyev İsaxan Allahverdi oğluna, ölçmələr aparmaq üçün yardım etdiklərinə görə, dərin minnətdarlığımızı bildiririk.

[1] *И. Касумоглу, И.А. Мамедова, Г.С. Мехтиев, Д.Г. Гусейнов., М.А. Алиев, Н.В. Махмудова, А.С. Амирова.* AMEA Xəbərləri 2012, N2, C. 93-96.

[2] *I. Kasumoglu, I.A. Mamedova, G.G. Quseynov, M.A. Aliev.* Fizika 2012 , V. XVIII, N2.

[3] *В.Б. Антонов, Д.Т. Гусейнов, Т.К.Касумов.* Доклады АН. т. XXX, n. 12, 1974, с. 13-16.

[4] *И. Касумоглу, И.А. Мамедова, Г.С. Мехтиев, М.А. Алиев.* AMEA Xəbərləri, N2, 2010. S. 56-58.

[5] *И.А. Драбкин, Б.Я. Мойжес.* ФТП, т. 21, в. 9, 1987, стр. 1715-1718.

[6] *В.Л. Винецкий, Г.А. Холдарь.* ФТП, 1982, т.16, в.7 стр. 1322-1325.

[7] *Р.Г. Родос.* Несовершенства и активные центры в полупроводниках Ga, Si. M. 1968, 378с.

I. Kasumoglu, I.A. Mamedova, G.S. Mehdiev, Zafar Kadiroglu, N.V. Mahmudova, M. Aliev, A.İ. Bağırov, I. Nasibov

SHORT CIRCUIT CURRENT IN γ-IRRADIATED $CuGaSe_2$ SINGLE CRYSTALS, INVERSION OF SPECTRUM

Considarable change of the value of the short curcuit current after the γ-irradiation of $CuGaSe_2$ is observed. The behaviour is explaned by the consentration change of the charge carriers after γ-irradiation.

И. Касумоглу, И.А. Мамедова, Г.С. Мехтиев, Зафар Кадыроглу,
Н.В. Махмудова, М. Алиев, А.И. Багиров, И. Насибов

ТОК КОРОТКОГО ЗАМЫКАНИЯ В γ-ОБЛУЧЕННЫХ МОНОКРИСТАЛЛАХ $CuGaSe_2$, ИНВЕРСИЯ СПЕКТРА

Наблюдается инверсия тока короткого замыкания, после γ- облучения в монокристаллах $CuGaSe_2$. Данное явление объясняется изменением отношения концентрации носителей заряда после γ- облучения.

Qəbul olunma tarixi: 18.12.2014

İZOPROPİL SPİRTİ MOLEKULUNUN QOŞ-KONFORMERİNİN QADAĞAN OLUNMUŞ RƏQSİ-FIRLANMA KEÇİDLƏRİ

Ç.O. QACAR, A.Ə. ADİILOV, S.A. MUSAYEV, C.Ə. CƏFƏROV, A.S. HƏSƏNOVA
Azərbaycan Milli Elmlər Akademiyasının H.M. Abdullayev adına Fizika İnstitutu,
H.Cavid 33, Bakı, AZ 1143, Azərbaycan
Qajar666@mail.ru

İzopropil spirti molekulunun qoş-konformerinin rəqsi-fırlanma spektrində 17-78 Qhs tezliklər diapazonunda qadağan olunmuş keçidlərin axtarışları aparılmışdır. 54 qadağan olunmuş rəqsi-fırlanma keçidi identifikasiya edilmişdir.

Bu iş Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun maliyyə yardımı ilə yerinə yetirilmişdir - Qrant-№ EİF-BGM-2-BRFTF-1-2012/2013-07/04/1

PACS:33.20.t;33.20.Vq
Açar sözlər: rəqsi-fırlanma spektri, tunnel parçalanması, qadağan olunmuş keçidlər

GİRİŞ.

İzopropil spirti molekulunun trans-konformerinin fırlanma spektri ilk dəfə İmanov, Abdurəhmanov və Yolçuyev [1] tərəfindən, sonralar isə Hirota [2] tərəfindən tədqiq edilmişdir. İzopropanol molekulunun qoş-konformerinin fırlanma və rəqsi- fırlanma spektrlərinin tədqiqinə Hirota [3] tərəfindən başlanmışdır. [4-9] işlərində bu molekulun fırlanma və mərkəzəqaçma sabitləri kifayət qədər dəqiqləşdirilmiş və ilk dəfə olaraq original reduksiya olunmuş hamiltoniandan istifadə etməklə molekulun daxili fırlanma parametrləri təyin edilmişdir.

TƏCRÜBİ HİSSƏ

Tədqiqat obyekti və metodu. İzopropil spirti molekulunun - $(CH_3)_2CHOH$ mikrodalğa fırlanma spektri hibrid radiospektrometrdə 17000-78060 MHs tezliklər diapazonunda tədqiq edilmişdir. Bu diapazona daxil olan 7000-dən çox spektral xəttin kataloqu tərtib edilmişdir [3]. Tezliklərin ölçmə dəqiqliyi spektral xəttlərin qarşılıqlı vəziyyətlərindən və intensivliklərindən asılı olaraq 0,05-0,15 MHs tərtibində dəyişib.

İzopropil spirti molekulunun ОП-2 ОСЧ 11-5 (əsas məhsulun 99,4%) markalı spektral təmiz nümunəsi heç bir təmizləmə aparılmadan istifadə olunub.

Fırlanma kvant ədədi J-nin $J\leq35$ qiymətləri üçün 54 qadağan olunmuş rəqsi-fırlanma keçidi identifikasiya edilmişdir. İdentifikasiya edilmiş keçidlər cədvəldə təqdim edilmişdir.

ALINMIŞ NƏTİCƏLƏRİN MÜZAKİRƏSİ

Spektral xətlərin qeydiyyatı zamanı onların paylanma sıxlığının daxili fırlanmanın parçalanma parametrinin qiymətinə (46799,073 MHs) yaxın ətrafda artması müşahidə olundu. Bu faktdan fırlanma spektrindən daxili fırlanmanın parçalanma parametrinin qiymətini təyin etmək üçün istifadə oluna bilər. [6] işində göstərilmişdir ki, spektral xəttlərin sıxlığının daxili fırlanmanın parçalanma parametrinin qiymətinə (46799,073 MHs) yaxın ətrafda artması burada, həmçinin asimmetrik fırfıraların dalğa funksiyaları təsvirində qadağan olunmuş rəqsi-fırlanma keçidlərinin də sıxlığına gətirir. Əgər asimmetrik fırfıra tipli molekulun dipol momentinin üç sıfırdan fərqli komponenti varsa, bu zaman spektrdə əsas fırlanma kvant ədədi J üçün $\Delta J=\pm1$; 0 seçmə qaydalarını ödəyən keçidlər müşahidə olunacaq. Dipol momentinin "a" oxu üzrə proyeksiyası μ_a –ya uyğun keçidlər üçün ΔK-1 cüt qiymət, aΔK+1–isə tək qiymət, dipol momentinin "c" oxu üzrə proyeksiyası μ_c–yə uyğun keçidlər üçün ΔK-1 tək qiymət, aΔK+1–isə cüt qiymət, dipol momentinin "b" oxu üzrə proyeksiyası μ_b–ya uyğun keçidlər üçün isə həm ΔK-1, həm də ΔK+1 –isə yalnız tək qiymət alır. ΔK-1 və ΔK+1-in cüt qiymətlərinə uyğun keçidlər isə asimmetrik fırfıraların dalğa funksiyaları təsvirində qadağan olunmuşdur. Bu cür keçidlər əvvəllər bir sıra spirt və merkaptan molekulları üçün müşahidə olunmuşlar [10-13]. Müəlliflər intensivliyi kifayət qədər olan qadağan olunmuş keçidlərin müşahidə olunmasında qadağanın aradan götürülməsini simmetrik və antisimmetrik hallara uyğun enerji səviyyələri arasında güclü rəqsi- burulma- fırlanma- qarşılıqlı təsirin olması ilə izah ediblər. Bu keçidlərin əksəriyyətinin tezliyi daxili fırlanmanın parçalanmasının qiymətinə yaxındır. Bunun hesabına spektral xəttlərin paylanma sıxlığı daxili fırlanmanın parçalanma parametrinin qiymətinə yaxın ətrafda artır.

Çox sayda qadağan olunmuş rəqsi-fırlanma keçidlərinin müşahidə olunması izopropil spirti molekulunun qoş-konformerinin rəqsi-fırlanma spektrinin identifikasiyasının düzgün aparıldığını bir daha təsdiq edir.

Cədvəl.

İzopropil spirti molekulunun qoş-konformerinin identifikasiya edilmiş qadağan olunmuş keçidlərinin tezlikləri (MHs)

	J	τ	-		J'	τ'	ν_{exc}	$\Delta = \nu_{exc} - \nu_{room}$
a	26	-9	-	s	26	-9	41583.090	0.0424
a	26	-10	-	s	26	-10	41583.090	0.0424
a	27	27	-	s	27	27	45302.390	0.1825
a	27	26	-	s	27	26	45302.390	0.1549
a	27	-12	-	s	27	-12	42030.000	0.2228
a	27	-13	-	s	27	-13	42030.000	0.2228
a	27	-18	-	s	27	-18	43826.170	0.1039
a	27	-19	-	s	27	-19	43826.170	0.1039
a	27	-20	-	s	27	-20	44445.120	-0.1710
a	27	-21	-	s	27	-21	44445.120	-0.1710
a	28	14	-	s	28	14	57272.750	0.1093
a	28	-17	-	s	28	-17	43107.260	0.2581
a	28	-18	-	s	28	-18	43107.260	0.2581
s	28	24	-	a	27	24	39144.120	0.2208
a	29	29	-	s	29	29	45648.260	0.0443
a	29	28	-	s	29	28	45648.260	0.0173
a	30	-5	-	s	30	-5	38466.350	-0.1464
a	30	-6	-	s	30	-6	38466.350	-0.1464
a	30	-9	-	s	30	-9	39731.820	0.2382
a	30	-10	-	s	30	-10	39731.820	0.2382
a	30	-27	-	s	30	-27	45616.340	0.0337
a	30	-28	-	s	30	-28	45616.340	0.0337
a	29	28	-	s	30	28	47236.650	-0.0239
a	31	24	-	s	31	24	54340.820	0.0691
a	31	-30	-	s	31	-30	46327.520	-0.2256
a	31	-31	-	s	31	-31	46327.520	-0.2256
a	32	32	-	s	32	32	46252.260	0.0516
a	32	31	-	s	32	31	46252.260	0.0385
a	32	-7	-	s	32	-7	38080.190	0.1398
a	32	-8	-	s	32	-8	38080.190	0.1398
a	32	-17	-	s	32	-17	41298.170	-0.0916
a	32	-18	-	s	32	-18	41298.170	-0.0916
a	33	30	-	s	33	30	39128.890	0.0872
a	33	27	-	s	33	27	39128.890	0.1302
a	33	-14	-	s	33	-14	39816.490	-0.0762
a	33	-15	-	s	33	-15	39816.490	-0.0762
a	33	-22	-	s	33	-22	42528.810	0.2137
a	33	-23	-	s	33	-23	42528.810	0.2137
a	33	-28	-	s	33	-28	44729.200	-0.1868
a	33	-29	-	s	33	-29	44729.200	-0.1868
a	35	-24	-	s	35	-24	42293.050	0.1958
a	35	-25	-	s	35	-25	42293.050	0.1958
a	35	-28	-	s	35	-28	43818.720	-0.0413
a	35	-29	-	s	35	-29	43818.720	-0.0413
a	35	-32	-	s	35	-32	45421.630	0.0531
a	35	-33	-	s	35	-33	45421.630	0.0531
a	35	-34	-	s	35	-34	46252.260	0.0088
a	35	-35	-	s	35	-35	46252.260	0.0088

burada: $\tau = \kappa_{-1} - \kappa_{+1}$

[1] *А.А. Абдурахманов, М.Н. Елчиев, Л.М. Иманов.* Изв, АН Азерб.ССР., сер. ФТМН, 1969, №4, с. 30-35.
[2] *S. Kondo, E. Hirota.* J. Mol. Spectrosc, 1970, v. 34, Nol, p. 97-107.
[3] *E. Hirota*. J.Chem. Phys., 1979, v. 83, № 11, p. 1457-1465.
[4] *O.N. Ulenikov, A.B. Malikova, Ch.O. Qajar, S.A. Musaev, A.A. Adilov and M.I. Mehtiev.* J. Mol. Spectrosc, 1991, 144, p. 262-269.
[5] *С.А. Мусаев.* Изв. АН Азербайджана, сер. ФТМН, 2000, т. 2000, № 6, с. 155-161.
[6] *М.Р. Алиев.* Успехи физических наук 1976, т.119, №3,с.557- 571
[7] *А.А. Адилов, Дж.А. Джафаров, Ч.О. Каджар, С.А. Мусаев*. ЖПС, 2008, т. 75, №5, с. 659-665
[8] *А.А. Адилов, Дж.А. Джафаров, Ч.О. Каджар, С.А.Мусаев.* Миллиметровые и субмиллиметровые спектры гош-конформера молекулы изопропанола Институт Физики. НАН Азерб. Баку 2009г.
[9] *С.А. Мусаев.* Физика АН Азербайджана, 2001, Том 7, №2 с.50-56
[10] *А.А. Адилов.* Внутреннее вращение и двойные квантовые резонансы. Диссерт. на соиск. канд. физ.-мат. наук. 1994, Баку,Филиал НИИ Фотоэлектроники.
[11] *С.А.Мусаев.* Гибридный радиоспектрометр, внутреннее вращение и центробежное возмущение высоких порядков в молекулах этанола и изопропанолаДиссерт. на соиск. док. физ-мат. наук .Баку 2002, Институт Физики НАН Азербайджана.

Ch.O. Qajar, A.A. Adilov, S.A. Musaev, J.A. Jafarov, A.S. Qasanova

FORBIDDEN VIBRATIONAL-ROTATIONAL TRASİTİONS OF GAUCHE-OF ISOPROPYL ALCOHOL

A search was made for forbidden transitions in a vibrotional- rotational spectrum of a isopropanol molecule in a frequency range of 17-78 GHz. In total 54 forbidden transitions have been identified. This work was supported by the Science Development Foundation under the President of the Republic of Azerbaijan-Grant № EİF-BGM-2-BRFTF-1-2012/2013-07/04/1.

Ч.О. Каджар, А.А. Адилов, С.А. Мусаев, Дж.А. Джафаров, А.С. Гасанова

ЗАПРЕЩЕННЫЕ КОЛЕБАТЕЛЬНО-ВРАЩАТЕЛЬНЫЕ ПЕРЕХОДЫ ГОШ-КОНФОРМЕРА МОЛЕКУЛЫ ИЗОПРОПИЛОВОГО СПИРТА

Проведен поиск запрещенных переходов в колебательно- вращательном спектре гош-конформера молекулы изопропанола в диапазоне частот 17-78 ГГц. Идентифицировано 54 запрещенных колебательно- вращательных переходов. Данная работа выполнена при финансовой поддержке Фонда Развития Науки при Президенте Азербайджанской Республики-Грант № EİF-BGM-2-BRFTF-1-2012/2013-07/04/1.

Qəbul olunma tarixi: 17.09.2014

FİZİKİ TERMİNLƏR VƏ İFADƏLƏR

A.İ. MUXTAROV
BDU, Z. Xəlilov, 23

M.A. MUXTAROV
AMEA-nın Riyaziyyat və Mexanika İnstitutu
Baki şəh., F. Ağayev küç, 9.

T.R. MEHDİYEV, K.B. QURBANOV, E.A. AXUNDOVA, N.A. AXUNDOVA, N.İ. HÜSEYNOVA, S.İ.ƏLİYEVA, E.Ə. ƏLƏSGƏROVA
AMEA, akademik H.M. Abdullayev adına Fizika İnstitutu
Az-1143, Bakı şəhəri, H. Cavid pr.,33.

C

c0001	cəbhə genezi	frontgenesis	фронтогенез
c0002	cəbhəliz	frontolysis	фронтолиз
c0003	cəbr	algebra	алгебра
c0004	cəbri həndəsə	algebraic geometry	алгебраическая геометрия
c0005	cəbr qrupu	algebraic group	алгебраическая группа
c0006	cəbri	algebraic	алгебраический
c0007	cəbri cəm	algebraic sum	алгебраическая сумма
c0008	cəbri diferensial tənlik	algebraic differential equation	алгебраическое дифференциальное уравнение
c0009	cəbri ədəd	algebraic number	алгебраическое число
c0010	cəbri ədədlər sahəsi	algebraic number field	поле алгебраических чисел
c0011	cəbri ədədlər sahəsi (sinfi)	real number field	поле действительных чисел
c0012	cəbri əyri	algebraic curve	алгебраическая кривая
c0013	cəbri funksiya	algebraic function	алгебраическая функция
c0014	cəbri genişlənmə	algebraic extension	алгебраическое расширение
c0015	cəbri həll	algebraic solution	алгебраическое решение
c0016	cəbri işarə	algebraic sign	алгебраический знак
c0017	cəbri məxsusi nöqtə	algebraic singularity	алгебраическая особая точка
c0018	cəbri müxtəliflik, cürbəcürlük	algebraic variety	алгебраическое многообразие
c0019	cəbri nöqtə	algebraic point	алгебраическая точка
c0020	cəbri quruluş	algebraic structure	алгебраическая структура
c0021	cəbri qapalı ekvivalent	algebraically equivalent	алгебраически эквивалентный
c0022	cəbri qapalı sahə	algebraically closed field	алгебраически замкнутое поле
c0023	cəbri səth	algebraic surface	алгебраическая поверхность
c0024	cəbri sistem	algebraic system	алгебраическая система
c0025	cəbri şaxələnmə nöqtəsi	algebraic branch-point	алгебраическая точка разветвления
c0026	cəbri tənlik	algebraic equation	алгебраическое уравнение
c0027	cəbri topologiya	algebraic topology	алгебраическая топология
c0028	cəbri uyğunluq	algebraic correspondence	алгебраическое соответствие

c0029	cəbri altqrup	algebraic subgroup	алгебраическая подгруппа
c0030	cəbri analiz	algebraic analysis	алгебраический анализ
c0031	cəbri asılılıq, cəbri asılı olma	algebraical dependence	алгебраическая зависимость, алгебраически зависимый
c0032	cəbri-qeyri asılılıq, cəbri asılı olmama	algebraical independence	алгебраическая независимость, алгебраически независимый
c0033	cəbrli	algebroidal	алгеброидный
c0034	cəbrli funksiya	algebroid function	алгеброидальная функция
c0035	cədvəl istilik tutumu	tabulated heat capacity	табличная теплоемкость
c0036	cəm işarəsi	summation sign	знак суммы, знак суммирования
c0037	cəmləmələr qaydası	sum rule	правило сумм
c0038	cənub	south	юг
c0039	cənub maqnetizmi	South magnetism	южный магнетизм
c0040	cənub maqnit qütbü	south magnetic pole	южный магнитный полюс
c0041	cənub maqnitlənmə	southern magnetization	намагничивание южное
c0042	cənub nöqtəsi	south point	точка юга
c0043	cənub qütb dairəsi	Antarctic Circle	южный полярный круг
c0044	cənub qütbü	south pole	южный полюс (магнитной стрелки или магнита)
c0045	cənub rəqsi	southern oscillation	южное колебание
c0046	cənub yarımkürəsi	southern	южное полушарие
c0047	cərəyan üzrə mənfi əks rabitə	direct-current negative feedback	отрицательная обратная связь по постоянному току
c0048	cərəyan	current	ток
c0049	cərəyan borusu	stream tube	трубка тока
c0050	cərəyan dalğası	current wave	волна тока
c0051	cərəyan daşıyıcısı	carrier of current	носитель тока
c0052	cərəyan funksiyası	stream function	функция тока
c0053	cərəyan gücləndiricisi	current amplifier	усилитель тока
c0054	cərəyan gücü	current power	мощность тока
c0055	cərəyan istiqaməti göstəricisi	current direction indicator	указатель направления тока
c0056	cərəyan kəsicisi	current breaker	прерыватель тока
c0057	cərəyan komponentı	current component	составляющая тока
c0058	cərəyan konturu	current circuit	контур тока, токовая цепь, цепь тока
c0059	cərəyan məhdudlayıcısı	current limiter	ограничитель тока
c0060	cərəyan mənbəyi	current source	источник тока
c0061	cərəyan mübadiləsi sıxlığı	exchange current density	плотность тока обмена
c0062	cərəyan paylayıcısı	distributor	токораспределитель
c0063	cərəyan qəbuledicisi	current collector	токоприемник
c0064	cərəyan relesi	current relay	реле тока
c0065	cərəyan rəqsi	current oscillation	колебание тока
c0066	cərəyan şiddəti	current intensity	сила тока
c0067	cərəyan şiddəti amplitudu	current strength amplitude	амплитуда силы тока
c0068	cərəyan sarğaci	current coil	катушка тока
c0069	cərəyan sistemi	current system	токовая система
c0070	cərəyan sıxlığı	current density	плотность тока
c0071	cərəyan stabilizatoru	current stabilizer	стабилизатор тока

c0072	cərəyan tənzimçisi	current regulator	регулятор тока
c0073	cərəyan tərəziləri	Rayleigh's ampere balance	токовые весы
c0074	cərəyan transformatoru	current transformer	трансформатор тока
c0075	cərəyan üzrə çıxış	current efficiency	выход по току
c0076	cərəyan üzrə əks rabitə	current feedback	обратная связь по току
c0077	cərəyan üzrə əks rabitəli gücləndirici	current-feedback amplifier	усилитель с обратной связью по току
c0078	cərəyan üzrə gücləndirmə əmsalı	current amplification factor	коэффициент усиления по току
c0079	cərəyan üzrə həssaslıq	current sensitivity	чувствительность по току
c0080	cərəyan üzrə paralel əks rabitə	parallel current feedback	параллельная обратная связь по току
c0081	cərəyan üzrə ardıcıl əks rabitə	series current feedback	последовательная обратная связь по току
c0082	cərəyan vektoru	current vector	вектор тока
c0083	cərəyan yaradan reaksiya	cell reaction	токообразующая реакция
c0084	cərəyan aparan	current-carrying	токоведущий
c0085	cərəyan xətlərinin yığılması	confluence	сходимость линий тока
c0086	cərəyan xətti	line of flow , strip of flow, stream line	линия тока , линия обтекания, линия течения
